**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “ÖLKƏ ƏRAZİLƏRİNİN İŞĞALI NƏTİCƏSİNDƏ AZƏRBAYCANIN DÖVLƏT BÜDCƏSİNƏ AZALAN DAXİLOLMALARIN TƏDQİQİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Əliyev İlkin Afiq**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**__________________________ imza**
**"__ _" ___ _____________2022-ci il**

# "ÖLKƏ ƏRAZİLƏRİNİN İŞĞALI NƏTİCƏSİNDƏ AZƏRBAYCANIN DÖVLƏT BÜDCƏSİNƏ AZALAN DAXİLOLMALARIN TƏDQİQİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisas:** 060403- Maliyyə

**İxtisaslaşma:** Maliyyə nəzarəti və audit

**Qrup:** 636

**Magistrant:**
**Əliyev İlkin Afiq oğlu**
**________________imza**

**Elmi rəhbər:**
**i.e.d., prof. Nizami Xudiyev Nəcəfqulu oğlu**
**________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**
**________________imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**________________imza**

**Bakı - 2022**

## Elm andı

Mən, Əliyev İlkin Afiq oğlu and içirəm ki, “Ölkə ərazilərinin işğalı nəticəsində Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmaların tədqiqi” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# ÖLKƏ ƏRAZİLƏRİNİN İŞĞALI NƏTİCƏSİNDƏ AZƏRBAYCANIN DÖVLƏT BÜDCƏSİNƏ AZALAN DAXİLOLMALARIN TƏDQİQİ


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Erməni təcavüzkarlığından ötən 30 il ərzində işğal altında olan rayonlar üzrə dövlət büdcəsinə hüquqi cəhətdən daxil olmalı olan daxilolmalar tədqiqatların aparılması, onun sosial-iqtisadi inkişaf siyasətinin strateji istiqamətlərinin müəyyən edilməsi aktual hesab edilir.**
**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi ölkə ərazilərinin işğalı nəticəsində dövlət büdcəsinə azalan daxilolmaların təhlili və proqnozlaşdırılmasının kompleks təhlil edilməsi, təklif, tövsiyələr işləyib hazırlamaqdan ibarətdir.**
**İstifadə olunmuş tədqiqat metodları: Empirik təhlil, müqayisə, analiz, iqtisadi faktların sistemləşdirilməsi, induksiya və deduksiya, riyazi və statistik hesablama.**
**Tədqiqatın informasiya bazası: "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, "Strateji Yol Xəritəsi", İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və erməni işğalçıları tərəfindən dağıdılmış, obyektlərin və işğal olunan ərazilərin göstəriciləri.**
**Tədqiqatın məhdudiyyətləri: Ötən 30 il ərzində düşmən torpqalarımızı işğal altında saxlayarkən bütün əraziləri darmadağın etmiş, buralarda insanın həyat sürməsi üçün heç bir iz buraxmamış, geniş miqyaslı minalama işləri aparmışlar.**
**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqat işində azalan daxilolmalar təhlil edilməklə iqtisadi cəhətdən əsaslandırılmış, gələcək inkişafı təmin etmək baxımından dəymiş ziyanın öyrənilməsinin perspektivləri analiz edilərək, büdcə gəlirlərinin idarə olunmasının həlli yollarına dair təkliflər verilmişdir.**
**Nəticələrin istifadə oluna biləcəyi sahələr: İşğaldan azad olunmuş ərazilər üzrə 30 illik vergi yükü səviyyəsi tapılaraq, bu əsasda korrelyasiyon metodla 30 il ərzində dövlət büdcəsinin əldə edə bilmədiyi vergi daxilolmalarının məbləği təqribi və ehtimal olaraq müəyyən edilə bilər.**
**Analoji təhlilləri Qarabağın iqtisadiyyatına yaxın ərazilər üzrə 1990-2020-ci illər ərzindəki inkişaf tendensiyasına tətbiq etmək yolu ilə Qarabağ rayonlarının inkişaf istiqamətləri üzrə dəqiqləşdirmə aparıla bilər.**


***Açar sözlər: dövlət büdcəsi, azalan daxilolmalar, iqtisadi inkişaf.***

**INVESTIGATION OF REDUCED INVESTMENTS TO THE STATE BUDGET OF AZERBAIJAN AS A RESULT OF OCCUPATION OF THE COUNTRIES**

**SUMMARY**

**The actuality of the subject: Receipts that should be legally included in the state budget for the occupied regions over the past 30 years of Armenian aggression are considered relevant to conduct research and determine the strategic directions of its socio-economic development policy.**

**Purpose and tasks of the research: The main purpose of the study is a comprehensive analysis of the analysis and forecasting of revenues to the state budget as a result of the occupation of the country's territories, the development of proposals and recommendations.**

**Used research methods: Empirical analysis, comparison, analysis, systematization of economic facts, induction and deduction, mathematical and statistical calculations.**

**The information base of the research: The Law of the Republic of Azerbaijan “On State Budget”, “Strategic Road Map”, Indicators of facilities and occupied territories destroyed by the Center for Economic Reforms Analysis and Communication and the Armenian occupiers.**

**Restrictions of research: Over the past 30 years, while occupying our lands, the enemy has destroyed all areas, left no trace of human habitation, and carried out large-scale mining operations.**

**The novelty and practical results of investigation: The study analyzed the declining revenues from an economic point of view, analyzed the prospects for studying the damage in terms of ensuring future development, and made recommendations for solutions to budget revenue management.**

**Scientific-practical significance of results: Finding the level of the 30-year tax burden on the liberated territories, on this basis, the amount of tax revenues that the state budget has not been able to obtain for 30 years can be determined approximately by the correlation method.**

**Keywords: state budget, reduced revenues, economic development.**

**MÜNDƏRİCAT**


| | | |
|---|---|---|
| | **GİRİŞ………………………………………………………….** | **7** |
| **I FƏSİL.** | **MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANIN DÖVLƏT BÜDCƏSİ GƏLİRLƏRİNİN FORMALAŞMASININ NƏZƏRİ- METODOLOJİ ƏSASLARI............................** | **11** |
| 1.1. | Dövlət büdcəsinin gəlirlərinin sosial-iqtisadi mahiyyəti və onun formalaşdırılmasının hüquqi, nəzəri-metodoloji məsələləri……................................................................... | 11 |
| 1.2. | Müasir şəraitdə büdcə gəlirlərinin formalaşması üsulları........ | 16 |
| 1.3. | Dövlət büdcəsi gəlirlərinin proqnozlaşdırılmasının tərtibi işinin təşkili.......................................................................... | 20 |
| **II FƏSİL.** | **ÖLKƏ ƏRAZİLƏRİNİN İŞĞALI NƏTİCƏSİNDƏ AZƏRBAYCANIN DÖVLƏT BÜDCƏSİNƏ AZALAN DAXİLOLMALARIN TƏHLİLİ.......................................** | **26** |
| 2.1. | Ölkə ərazilərinin işğalı nəticəsində Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmaların iqtisadi cəhətdən əsaslandırılması…………….............................................. | 26 |
| 2.2. | İşğaldan azad edilən rayonların iqtisadi inkişafın dayanıqlığına təsiri və ərazilərin iqtisadi potensialının təhlili............................................................................................ | 32 |
| 2.3. | Azərbaycan Respublikasında dövlət büdcə gəlirlərinin retrospektiv dinamikasının və mövcud vəziyyətinin təhlili...... | 38 |
| 2.4. | Ölkə ərazilərinin işğalı nəticəsində Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmaların statistik təhlili....................... | 43 |
| **III FƏSİL.** | **“AZƏRBAYCAN 2030: SOSİAL-İQTİSADİ İNKİŞAFA DAİR MİLLİ PRİORİTETLƏR” ÇƏRÇİVƏSİNDƏ İQTİSADİ ARTIM ƏSASINDA DÖVLƏT BÜDCƏSİNƏ DAXİLOLMALARIN (O CÜMLƏDƏN İŞĞALDAN AZAD OLUNAN ƏRAZİLƏRDƏN) MÜASİR PROBLEMLƏRİNİN HƏLLİ YOLLARI.........................** | **51** |
| 3.1. | Azərbaycan Respublikasında dövlət büdcə gəlirlərinin formalaşması və idarə olunmasının müasir problemlərinin həlli yolları......................................................................... | 51 |
| 3.2. | Azərbaycanın büdcə gəlirlərinin formalaşmasında səmərəli vergi siyasətinin rolu və onun təkmilləşdirilməsi istiqamətləri...................................................................... | 58 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR...............................................** | **64** |
| | **İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI……....** | **67** |
| | Cədvəllərin siyahısı……………………................................ | 71 |

# GİRİŞ

**Tədqiqat mövzusunun aktuallığı:** Azərbaycan Respublikasında 1991-ci ildə Dövlət müstəqilliyi bərpa edildikdən sonra digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də müstəqil siyasət aparılmağa başlanmışdır. Uğurla davam edən bu qlobal siyasətin əsas istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında həyata keçirilən iqtisadi sistem, bazar iqtisadiyyatına keçidin və dünya iqtisadi sisteminə inteqrasiyanın tələblərinə əməl edilməsi prinsipləri təşkil etmişdir.

Azərbaycan tarixinin 1991-1995-ci illəri müstəqillik tarixində ilk belə iqtisadi xaotik bir dövr olmuşdur. İqtisadiyyatın belə ağır vəziyyəti Azərbaycan torpaqlarının 20%-nin işğala məruz qalmasına səbəb olmuşdur. Qeyd edilən illərdən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf isə işğalda olan ərazilərimizi əhatə edə bilməmişdir. Respublika iqtisadi rayonlarının 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illərin sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramında işğal ərazilərinin iştirakı qeyri-mümkün olmuşdur.

Ötən 30 il ərzində işğal altında olan rayonlar üzrə dövlət büdcəsinə hüquqi cəhətdən daxil olmalı olan daxilolmalar öz əksini tapa bilməmişdir ki, bu da Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmalar kimi münasibət yaratmışdır. Ərazilərinin işğalı nəticəsində dövlət büdcəsinə azalan daxilolmaların respublikamızın iqtisadi inkişafı üçün əhəmiyyətli olmasını nəzərə alaraq dövlət bu sahədə irimiqyaslı tədqiqatların aparılmasını, onun sosial-iqtisadi inkişaf siyasətinin strateji istiqamətlərinin müəyyən edilməsini vəzifə kimi qarşıya qoyur.

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamına əsasən qarşıdakı onillikdə Azərbaycanda dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; rəqabətli insan sərmayəsi, yeniliklər mərkəzi; işğaldan azad olunmuş ərazilərə böyük qayıdış; təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi reallaşdırılmalıdır. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ə istinad edərək qeyd edə bilərik ki, işğaldan azad edilmiş

ərazilərdə də iqtisadi münasibətlərdə iştirak edən bütün subyektlərin fəaliyyətində müsbət dinamika əks olunacaqdır .

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Dövlət büdcəsi dövlətin iqtisadi və sosial funksiyalarının həyata keçirilməsində başlıca alternativdir. Dövlət büdcəsi gəlirlərinin sosial-iqtisadi mahiyyəti, bir çox alimlərinin əsərlərində öyrənilmişdir. Bu alimlərin arasında K.R.Makonnel, Stenli L.brö, V.Oyken, P.Samuelson, U.Notdxaus, Ç.Kindlberqer, R.Aliber, M.Mekson, A.P.Qradov, Q.B.Polyak, E.P.Kaçurovski və başqalarının adlarını xüsusi qeyd etmək lazımdır.

Azərbaycan iqtisadçılarından Ə.Ələkbərov, Y.Kəlbiyev, N.N.Xudiyev, Ş.Bədəlov, A.B.Abbasov, Ş.Ə.Axundov, S.A.İbadov, V.A.Bayramov, A.Şəkərəliyev, Q.Şəkərəliyev, A.Əliyev, R.F.Məmmədov, X.R.Məmmədov, T.N.Əliyev, T.S.Vəliyeva, K.İmanov, E.Suleymanov, S.Yusifov və başqaları ölkə iqtisadiyyatının problemlərinə dair dəyərli tədqiqatlar aparmış və sanballı monoqrafiyalar çap etdirmişlər.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas məqsədi ölkə ərazilərinin işğalı nəticəsində Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmaların təhlili və proqnozlaşdırılmasının kompleks təhlil edilməsi, mövcud reallıqların ictimaiyyətə və beynəlxalq qurumlara çatdırılması istiqamətində əsaslı şəkildə hazırlanmış təkliflər planından ibarətdir. Elmi cəhətdən belə bir vəzifənin həyata keçirilməsi üçün aşağıdakı prioritet istiqamətlər vurğulanmışdır:

- dövlət büdcəsinin gəlirlərinin sosial-iqtisadi mahiyyəti və onun formalaşdırılmasının iqtisadi cəhətdən zəruriliyinin tədqiqi;
- elmi-metodik ədəbiyyatda dövlət büdcənin məqsədi, funksiyaları, strukturu və strateji istiqamətləri ilə bağlı konseptual yanaşmaların araşdırılması;
- ölkə ərazilərinin işğalı nəticəsində Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmaların iqtisadi cəhətdən əsaslandırılması;
- işğaldan azad edilən rayonların iqtisadi inkişafın dayanıqlığına təsiri və ərazilərin iqtisadi potensialının təhlil olunması;
- Azərbaycan Respublikasında dövlət büdcə gəlirlərinin dinamikasının və mövcud vəziyyətinin təhlil olunması;

- ölkə ərazilərinin işğalı nəticəsində Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmaların statistik təhlil olunması;
- Azərbaycan Respublikasında dövlət büdcə gəlirlərinin idarə olunmasının müasir problemlərinin həlli yollarına dair təklif və tövsiyələr verilməsi.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyektini erməni işğalçıları tərəfindən dağıdılmış, yandırılmış və talan olunmuş obyektlər, işğal olunan ərazilər üzrə ölkə iqtisadiyyatına dəymiş ziyanın öyrənilməsi prosesi, onun predmetini isə ölkə ərazilərinin işğalı nəticəsində Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmaların tədqiqinin nəzəri-praktiki məsələləri təşkil edir.

**Tədqiqat metodları:** empirik təhlil, müqayisə, analiz, iqtisadi faktların sistemləşdirilməsi, induksiya və deduksiya, riyazi və statistik hesablama.

Tədqiqat metodlarından səmərəli istifadə etməklə ümumi daxili məhsulun proqnozlaşdırılan həcmi tapıldıqdan sonra işğaldan azad olunmuş ərazilər üzrə 30 illik orta vergi yükü səviyyəsi tapılmalı və bu əsasda korrelyasiyon metodla biz 30 il ərzində ölkə büdcəsinə daxil edilməsi mümkün olmayan məbləğləri təqribi hesablaya bilərik.

Tədqiqatımızın sonrakı mərhələsində biz, daxilolmaların analitik və diferensial təhlilini davam etdirməyi, yəni o cümlədən, fiziki şəxslərin gəlir vergisi üzrə itkiləri, mənfəət vergisi üzrə itkiləri, torpaq vergisi üzrə itkiləri, əmlak vergisi üzrə itkiləri, sosial sığortaya ayırmalar üzrə itkiləri hesablayıb əldə edəcəyimiz rəqəmi daha da dəqiqləşdirə bilərik.

Analoji olaraq Qarabağın iqtisadiyyatına yaxın ərazilərdə, məsələn, Bərdə, Tərtər, Ağcabədi və digər ərazilərdə də araşdırmalarımızı aparmışıq. 1990-2020-ci illərdə regionların inkişaf tendensiyasını götürsək, Qarabağ bölgələrinin də inkişaf istiqamətlərini bu inkişaf tendensiyasına tətbiq etməklə aydınlaşdırmaq olar. Bu istiqamətdə aparılan araşdırmalar büdcə gəlirlərinin azalmasının miqyasını daha dəqiq müəyyən etməyə əsas verəcək.

**Tədqiqatın informasiya bazası:** "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, http://www.iqtisadiislahat.org/ və http://www.e-qanun.az resursları.

“Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi”, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (http://www.iqtisadiislahat.org/) və erməni işğalçıları tərəfindən dağıdılmış, yandırılmış və talan olunmuş obyektlərin və işğal olunan ərazilərin göstəriciləri (http://sfdi.gov.az/az/qarabagi-unutma).

**Tədqiqatın məhdudiyyətləri:** Ötən 30 il ərzində işğal altında olan rayonlar üzrə dövlət büdcəsinə hüquqi cəhətdən daxil olmalı olan daxilolmalar öz əksini tapa bilməmişdir. Bu da Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmalar kimi bir münasibəti yaratmışdır.

Düşmən torpqalarımızı işğal altında saxlayarkən bütün əraziləri darmadağın etmiş, buralarda insanın həyat sürməsi üçün heç bir iz buraxmamış, torpaqlarımızda geniş miqyaslı minalama işləri aparmışlar.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, ölkə ərazilərinin işğalı nəticəsində Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmalar təhlil edilməklə elmi əsaslarla iqtisadi cəhətdən əsaslandırılmış, Azərbaycanın gələcək inkişafını təmin etmək baxımından ərazilərinin işğalı nəticəsində ölkə iqtisadiyyatına dəymiş ziyanın öyrənilməsinin perspektivləri analiz edilmiş, dövlət büdcə gəlirlərinin idarə olunmasının həlli yollarına dair təkliflər verilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqat işində əldə edilən nəticə və təkliflərdən maliyyə bazarlarının təkmilləşdirilməsində, ərazilərimizin işğalı nəticəsində ölkə iqtisadiyyatına dəymiş ziyanın öyrənilməsinin perspektivlərinin müəyyənləşdirilməsində, işğaldan azad olunan rayonlar üzrə biznes-planların hazırlanmasında, ali məktəblərdə, eləcə də elmi-tədqiqat müəssisələrində istifadə edilə bilər.

# I FƏSİL. MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANIN DÖVLƏT BÜDCƏSİ GƏLİRLƏRİNİN FORMALAŞMASININ NƏZƏRİ - METODOLOJİ ƏSASLARI

## 1.1. Dövlət büdcəsinin gəlirlərinin sosial-iqtisadi mahiyyəti və onun formalaşdırılmasının hüquqi, nəzəri-metodoloji məsələləri

Büdcə münasibətləri maliyyə münasibətlərinin əsas tərkib hissələrindən biri kimi çıxış edir.

Büdcə (ing. budget; qədim Normand dilindən: bougette - pulla dolu çanta, dəri çanta, pul bağlaması, pul kisəsi) – təsərrüfat subyektinin hər bir maliyyə ili üçün xərc və gəlirlərini əks etdirən illik maliyyə planıdır. Gələcək xərcləri və gəlirləri, onların ətraflı təsvirini və tətbiqini hesablayır. Sonuncuya büdcə qeydləri də daxildir (Əhmədov İ., Aslanlı K., Əhmədov Ş. (2008) "Dövlət Maliyyəsi terminləri lüğəti", Bakı, 186 səh.).

Ölkəmizdə dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarını və vəzifələrini həll etmək, qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət funksiyalarının yerinə yetirilməsi üçün vəsaitlərin toplanmasını və istifadəsini təmin etməkdən ibarətdir.

Azərbaycan Respublikasının dövlət büdcəsinin strukturunu aşağıdakı şəkildə verə bilərik:

**Cədvəl 1 :** Dövlət büdcəsinin strukturu

| **Dövlət büdcəsi** | | |
|---|---|---|
| **Dövlət büdcəsinin gəlirləri** | **Dövlət büdcəsinin xərcləri** | **Dövlət büdcəsinin kəsiri və artıqlığı** |
| Mərkəzləşdirimiş gəlirlər<br>Yerli gəlirlər | Mərkəzləşdirimiş xərclər<br>Yerli xərclər | |

**Mənbə :** Tədqiqatçı tərəfindən tərtib edilmişdir

Ölkə büdcəsinin təşkilat strukturunu dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsi və lokal mənşəli büdcə təşkil edir. Lokal - yerli mənşəli büdcəyə şəhər, rayon və s aiddir. Bunlar öz hüquqlarına, maliyyələşmə mənbələrinə və istifadə mexanizmlərinə görə xeyli fərqlənir. Bu büdcələrə ümumi şəkildə büdcə sistemi deyilir.

Qanunvericilikdən irəli gələrək büdcənin gəlirləri aşağıdakılardan ibarətdir:

- vergilərdən daxilolmalar;

- qrantlar;

- sair mənbələrdən gəlirlər;

Dövlət büdcəsi dövlətin əsas maliyyə planıdır. Büdcə aşağıdakı funksiyaları həyata keçirir:

- ümumi daxili məhsulun yenidən bölüşdürülməsi;

- iqtisadiyyatın dövlət tənzimlənməsi və həvəsləndirilməsi;

- dövlətin sosial siyasətinin həyata keçirilməsinin maliyyə təminatı;

- mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yaradılması və istifadəsi üzərində nəzarət (Bədəlov Ş. "Büdcə sistemi" (dərs vəsaiti), Bakı, 2008, 156 səh.).

Rus iqtisadçısı Q. B. Polyakın fikrincə, "büdcə dövlət orqanlarının və yerli özünüidarəetmə orqanlarının funksiya və fəaliyyətini maliyyələşdirmək üçün vəsaitlərin formalaşdırılması və xərclənməsi fondudur" (Поляк Г.Б. (1998) "Региональная политика в странах рыночной экономики", Москва, стр. 356.).

Başqa bir iqtisadçı ekspert Babiç də büdcəni eyni şəkildə xarakterizə edir: "Büdcə dövlətin və yerli özünüidarənin maliyyə təminatı üçün vəsaitlərin formalaşdırılması və xərclənməsi üçün mərkəzləşdirilmiş fonddur" (Бабич А.Д. "Проблемы и перспективы внутреннего рынка государственных долговых обязательств" стр. 65.).

Respublikamızda büdcəni ölkənin müvafiq özünüidarəetmə orqanları, hakimiyyət orqanları və digər bu tipli orqanların vasitəsilə dövlətə, bələdiyyələrə aid olan vəzifələri və funksiyaları həyata keçirmək üçün əsas maliyyə sənədi kimi görə bilərik. Ölkəmizdə büdcə onun əsas maliyyə planı hesab edilir. Bu proses ikitərəflidir və bu prosesə biz ilk öncə büdcə gəlirlərinin yaradılmasını, büdcə gəlirlərinin müvafiq yönümdə xərclənməsini və büdcənin tarazlaşdırılmasını aid etmək olar. Azərbaycanda büdcənin yaranması və inkişafı tarixini xronoloji olaraq aşağıdakı 3 dövrə bölmək olar:

- Birinci dövr büdcə quruculuğu dövrüdür ki, təqribən ötən əsrin ikinci onilliyinə təsadüf edir. Həmin dövrdə Azərbaycanda büdcənin gəlirlərinin müxtəlif büdcələr arasında paylaşdırılması üfüqi formada reallaşdırılmışdır.

- İkinci dövr kimi ölkəmizin keçmiş SSRİ-nin tərkibində olduğu dövrü qeyd etmək lazımdır.

- Üçüncü dövr kimi ötən əsrin 90-cı illərində ökəmiz tam olaraq müstəqillik əldə etdikdən sonra maliyyə və büdcə sistemi ilə bağlı bütün problemlərin öz həlli yolunu tapmağa doğru istiqamətləndiyi kimi xarakterizə edə bilərik.

Ölkəmizdə müstəqillik əldə etdikdən sonra büdcə və maliyyə sistemi ilə bağlı bir sıra vacib aktlar tərtib edilib. Azərbaycan Respublikası büdcə gəlirləri "Büdcə sistemi haqqında " Qanunda aşağıda göstərilən kateqoriyalardan ibarətdir:

-dövlət vergiləri;

-qanunvericiliyə uyğun alınmış vəsaitlər;

-qrantlar;

-digər gəlirlər.

Qeyd etmək lazımdır ki, vergilərdən əldə olunan vəsaitlər büdcə gəlirlərimizin böyük hissəsini təşkil edir. Büdcə gəlirlərinin formalaşmasında vergi olmayan gəlirlər mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə biz cərimələri, sanksiyaları, rüsumları, inzibati tədiyyələri üzrə daxilolmaları və vergiyə aidiyyatı olmayan digər ödənişləri nəzərdə tuturuq.

Büdcə gəlirlərinin tərkibində əsaslı gəlirlərin də payı böyükdür. Əsaslı gəlirlərə torpağın və qeyri -maddi aktivlərin, dövlətin maddi satışından, vəsaitlərin özəlləşdirilməsindən və .s daxil olan gəlirləri aid edə bilərik.

Büdcə gəlirlərinin formalaşdırılmasında qanunvericiliyə müvafiq qaydada alınan vəsaitləırin az da olsa payı vardır. Belə vəsaitlər rəsmi qaydada alınan ödənişlərdir. Bu transfertlərə xaricdən alınan və başqa səviyyəli büdcələrdən əldə olunan vəsaitləri aid edə bilərik.

Qanunvericiliyə uyğun olaraq nəzərdə tutulmuş həcmdən çox büdcəyə ödənilmiş vəsaitlərin (vergilərin, rüsumların və s.) və daxilolmaların büdcədən geri qaytarılması büdcənin gəlirlərinin azaldılmasına şamil edilir.

İqtisadi mahiyyətinə görə dövlət büdcəsinin gəlirlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

-cari gəlirlər, həmçinin vergilər haqqında qanunvericiliklə təsdiq edilmiş dövlət gəlirləri, o cümlədən həmin vergilərə əsasən hesablanmış faizlər və müvafiq maliyyə sanksiyaları;

-daxili və xarici mənbələrdən əldə olunan qrantlar, transfertlər;

-dövlət rüsumları , gömrük rüsumları və yalnız birdəfəlik olan rüsumlar;

-əsas vəsaitlərin yaxud dövlət ehtiyatında olan əmtəə və xidmətlərin satışından, yaxud icarəyə verilməsindən əldə olunan gəlirlər;

-qanunvericiliyə müvafiq olaraq digər daxilolmalar;

Azərbaycan Respublikası büdcə gəlirləri vergitutma obyektlərinə, ödənişin müddətinə, vergi ödəyicilərinə, alınması üsullarına və digər kriteriyalarına görə də fərqlənir.

Büdcə gəlirləri vergilərdən, əsaslı gəlirlərdən, vergiyə aidiyyatı olmayan digər gəlirlərdən və rəsmi qaydada qəbul edilən vəsaitlərdən ibarətdir. Vergi gəlirlərinin əsas hissəsinə yenidən bölgü əsasında alınan (əməkhaqqı, dividendlər, mənfəət, ssuda faizi və s.) gəlirlər, yaradılmış dəyər və müvafiq yığım aid edilir.

Bazar iqtisadiyyatı şəraitində inkişaf edən respublikamız iqtisadiyyatın bir çox sahələrində davamlı inkişafı təmin etməklə həyata keçirdiyi islahatlar öz bəhrəsini vermişdir. Dövlət büdcəsi gəlirlərinin davamlı olaraq artırılmasında, cəmiyyətin həyat səviyyəsinin qaldırılmasında, iqtisadiyyatımızın daha da canlandırılmasında dövlətin həyata keçirdiyi maliyyə-büdcə islahatları öz töhfəsini vermişdir.

Azərbaycan sosial-iqtisadi cəhətdən irəliləyir, siyasi mövqelərini möhkəmləndirir. 2021-ci ildə Azərbaycanın yeni nailiyyətlərə imza atacağı şübhəsizdir. Eyni zamanda, atılan addımlar ölkəmizin Qafqazda liderliyini daha da möhkəmləndirəcəyini zərurət yaradır. Region ölkələrinin büdcələrinə baxsaq əgər bunu aydın şəkildə görə bilərik.

Dövlət büdcəsinin gəlirlərinin 54,2 faizi və ya 13 milyard 776 milyon manatı neft sektorunun, 45,8 faizi və ya 11 milyard 651 milyon manatı qeyri-neft sektorunun payına düşür.

2022-ci il dövlət büdcəsinin xərcləri 28 milyard 543 milyon manat (ÜDM-in 37,7 faizi) proqnozlaşdırılır ki, bu da 2020-ci illə müqayisədə 1 milyard 50,8 milyon manat və ya 3,8 faiz artıqdır.

Həmişə olduğu kimi, Ermənistan regionda ən aşağı büdcəyə malikdir. Onun 2021-ci ildə büdcə gəlirləri 1 trilyon 569 milyard dram təşkil edəcək. Bu, 3 milyard 70 milyon dollara bərabərdir. Belə demək olar ki, Ermənistan büdcəsi Azərbaycankından 25 faiz azdır.

2021-ci il və orta müddətli dövr üçün sosial-iqtisadi inkişaf konsepsiyanın ali məqsədi rəqabət qabiliyyətini artırmaqla, davamlı iqtisadi inkişafı təmin etmək və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına nail olmaqdan ibarətdir. Əsas sənədlərdə müəyyən edilmiş hədəflər və prioritet istiqamətlər pandemiyanın təsirləri nəzərə alınmaqla, işğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı çağırışları, habelə İqtisadi Şuranın yaradılması ilə bağlı cənab Prezidentin müvafiq Fərmanı ilə müəyyən edilmiş vəzifələrə uyğun olaraq, 2021–2024-cü illərdə sosial-iqtisadi inkişaf siyasətinin aşağıdakı strateji məqsədləri müəyyən edilmişdir:

- yerli iqtisadi ixracın rəqabət bacarığının artırılması;
- makro iqtisadi stabilliyin qorunması;
- şəxsi yatırımların artırılmasıyla gələcəkdə inkişafı nəzərdə tutulan sektorlara dəstəyin təşkili;
- fiskal dözümlülüyün qüvvətləndirilməsi;
- dövlət səlahiyyətindəki obyektlərin gəlirliliyinin çoxaldılması;
- Qarabağa böyük qayıdışla bağlı işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və iqtisadi potensialının işə salınması;
- sosial müdafiənin qüvvətləndirilməsi.

Böyük Qayıdışın təmin edilməsi üçün işğaldan azad edilmiş ərazilərin bərpası və yeni infrastrukturların yaradılmasına beynəlxalq təşkilatların da cəlb edilməsi çox vacibdir.

## 1.2. Müasir şəraitdə büdcə gəlirlərinin formalaşması üsulları

Büdcə gəlirlərinin formalaşması ölkədə dövlətlə müəssisələr arasında, təşkilatlar və vətəndaşlar arasında baş verən iqtisadi münasibətlərin formalaşmasında mühüm rol oynayır. Formalaşmış büdcə gəlirləri öz funksiyalarını yerinə yetirmək üçün dövlətin mərkəzləşdirilmiş maliyyə resurslarının bir hissəsi hesab edilir. Büdcə gəlirləri quruluşunda müəyyən fərqlərin meydana çıxması dövlət quruluşundan asılı olaraq formalaşır. Ölkəmizdə dövlət büdcəsinə daxilolmalar əsasən üç hissəyə ayrılır:

1. Vergilər
2. Qeyri-vergili tədiyələr
3. Rüsumlar

Ölkənin vəziyyətinə görə daxilomlaların miqdarında büdcənin 75/100 hissəsindən artığında vergilərin payı var. Daxil olan vergilər milli gəlirin məcburi mərkəzləşdirilən hissəsidir. Vəsait üzərində mülkiyyət formasının dəyişməsi vergiləri qeyri-vergili tədiyələrdən fərqləndirən əsas cəhətdir.

Vergilərdən fərqli olaraq vergidənkənar vəsait tutularkən mülkiyyət formasında heç bir dəyişiklik edilmir. Hökumət tabeçiliyində olan müəssisələrdən gəlir vergisi - ƏDV tutularkən mülkiyyət forması dəyişmir. Ona görə ki, müəssisənin bütün vəsaitinə və büdcəyə köçürülən hissəyə dövlət sərəncam verir, Deməli, burada mülkiyyət forması dəyişmir.

Digər qəbzlərdən fərqli olaraq rüsum alınarkən dövlət bunun müqabilində müəyyən xidmət haqqı həyata keçirir.

Dövlət əmlakından istifadədən əldə edilən gəlirlər, vergilər, dövlət gəlirləri, kreditlər üzrə gəlirlər və xəzinədən istifadədən əldə edilən gəlirlər dövlət gəlirlərinə daxildir. Bu gəlirlərə dövlət resurslarından istifadədən əldə edilən gəlirlər, vergilər və vergi xarakterli dövlət gəlirləri daxildir. Dövlətin fövqəladə gəlirləri xəzinə gəlirləri adlanır. Bu gəlir qrupu dövlətə çoxlu gəlir gətirir. Bu gəlirlərin etibarsızlığı gələcəkdə real dövlət gəlirləri hesabına kompensasiya edilməlidir. Gələcəkdə xəzinədarlıq tərəfindən buraxılmış qiymətli kağızların və ya alınan borcların ödənilməsi qaçılmazdır. Ölkədə mövcud olan büdcə sisteminin

qanunvericiliklə müəyyən edilmiş və hər il Büdcə haqqında qanunla müəyyən edilmiş digər mənbələri də vardır. Mövcud qanunvericiliyə görə, milli gəlirin və milli sərvətin hansı hissəsi hər il büdcə vasitəsi ilə Büdcə Qanununda yenidən bəyan edilməlidir. Büdcə gəlirləri özünəməxsus olsa da, onların büdcədə iştirak forması və onun hesablanması üsulları müxtəlifdir. Büdcə gəlirlərinin təsnifatı aşağıdakı şərtlərlə müəyyən edilə bilər:

Sosial-iqtisadi xüsusiyyətlərə;

büdcəyə köçürmə şərtlərinə;

Təşkilati-hüquqi formalarına görə

Sosial-iqtisadi təsvirə görə gəlirlər aşağıdakı növlərə bölünür:

iqtisadi fəaliyyətdən əldə edilən gəlirlərdən daxilolmalar;

xarici iqtisadi əlaqələrdən daxilolmalar;

aksizlər;

müəssisələrə göstərilən broker xidmətlərindən və digər vasitəçilik xidmətlərindən əldə edilən gəlirlər;

öhdəliklər;

bank və sığorta fəaliyyətindən gəlirlər;

özəlləşdirmədən əldə edilən vəsaitlər;

daxil olan gəlir;

digər gəlirlər (o cümlədən köhnəlmiş əmlakın satışı, sahibsiz əmlakın müsadirəsi və s.)

Qeyd olunan əlamətlər üzrə büdcə gəlirlərinin bölgüsü xarakterizə edilir.

Ölkə daxilində kommersiya fəaliyyətinin geniş yayılması, buraya get-gedə müxtəlif subyektlərin cəlb edilməsi, özəlləşdirmə proqramının işlənib hazırlanması və onun gözlənilən tələblərə uyğun səviyyədə yerinə yetirilməsi respubliknın büdcəsinin bu vaxtadək mövcud olmayan yeni gəlir mənbələrinin yaranması ilə nəticələnmişdir.

Dövlət mülkiyyətində olan əmlakın istifadəsi, satışı və icarəyə verilməsindən gələn gəlirləri sosial-iqtisadi xarakterinə görə büdcə sisteminin sair gəlirlərinə aid etmək olar. Bələdiyyə mülkiyyəti tabeçiliyində olan əmlakın satışı və icarəyə

verilməsindən əldə olunan gəlirlər bu gəlirdən olan tədiyələrin tərkibinə daxil ediləcəkdir.

Konsolidə edilmiş və standart gəlirlərin, subsidiyaların, subvensiyaların və subsidiyaların, xüsusi və borc vəsaitlərinin bölünməsi büdcə gəlirlərinin köçürülməsi qaydaları və şərtləri ilə xarakterizə olunur.

Tənzimləyici gəlirlərin köçürülməsi və müəyyən edilməsini yüksək səviyyəli büdcə dövrəsinin təsdiqinə dair hüquqi akt adlandırmaq olar. Məsələn, Respublikanın dövlət büdcəsinin təsdiqi prosesində - kənd və qəsəbə büdcələrinə ayırmalar üzrə yerli büdcələrin Milli Məclis tərəfindən təsdiq edilməsi prosesində bunu yerli özünüidarəetmə orqanları (icra hakimiyyəti, bələdiyyə şüarları və s.) həyata keçirə bilər.

Digər tərəfdən, büdcə gəlirləri də vacibdir ki, bu da subsidiya və subvensiya şəklində təşkil oluna bilər. Qrantlar, qrantlar və subvensiyalar yuxarı büdcədən aşağı büdcəyə maliyyə yardımı şəklində daxil olan vəsait kimi öz payına malikdir.

Büdcə kəsirinin çox olması vəsait mənbələri büdcə xərclərini örtməsi üçün kifayət etmədikdə borc vəsaitələrinə zərurət yaranır.

Borc vəsaitlərinə aiddir:

1. Qanunvericiliyinə uyğun olaraq investisiya məqsədi üçün buraxılan istiqrazlar.
2. Kommersiya banklarından və Milli Bankdan faizli və faizsiz kreditlər.
3. Büdcədənkənar vəsaitlərin müvəqqəti istifadəsi, Prezident Fondundan istifadə, neft şirkətinə yönəldilən mükafatlar və s. Milli Məclisin qərarı və ya Prezidentin xüsusi fərmanı ilə seçilmiş digər mənbələr kimi.

Aşağıdakı vergi sistemi növlərini ayırd etmək olar:

1. Mütərəqqi, mütərəqqi vergitutma sistemi.
2. Reqressiv, qeyri-proqressiv vergi sistemi.
3. Qarışıq vergitutma sistemi.
4. Proporsional vergitutma sistemi.

Proqressiv, yəni mütərəqqi vergi sistemi bütün dünyada ən geniş istifadə olunan vergi sistemidir. Vergi mükəlləfləri olan fiziki  və hüquqi şəxslərin gəlirləri

artdıqca gəlir vergisinə tətbiq edilən vergilərin artırılması bu vergi sisteminin əsas mahiyyətini xarakterizə edir. Belə ki, bu vergi sisteminin  tətbiq edildikdə dövlət minimum və maksimum vergi faizləri dərəcəsini müəyyən edə bilir. Əlbəttə ki, dövlətin gəlirinin artırılmasını təmin edən belə vergi sistemi istehsalçılar və digər gəlir sahibləri üçün stimullaşdırıcı olmaya bilər.

Mahiyyət etibarilə proqressiv vergi sisteminin tamamilə əksi olan reqressiv, yəni qeyri-mütərəqqi vergi sistemində  şəxslərin gəliri artdıqda tətbiq edilən gəlir vergisinin faizi aşağı salınır. Dövlət vergiqoymada və gəlir bölgüsündə bu sistemin tətbiqi ilə bərabərlik prinsipini tətbiq edə bilir. Qeyri-mütərəqqi vergi sistemi əksər vaxtlarda güclü iqtisadiyyata malik olmayan dövlətlər tərəfindən həyata keçirilir.

Həyata keçiriləcək normaları və reallaşdırılacaq məqsədləri əhatə edən və əsas götürülən məsələlər vergi tətbiqinin prinsipləri ilə xarakterizə olunur.

Qeyd etmək istərdik ki, maliyyə işçiləri arasında vergiqoymanın prinsipləri məsələsi ilə bağlı zaman-zaman müxtəlif fikirlər mövcud olmuşdur. Dövlətin mümkün qədər çox gəlirlə təmin edilməsi vergiqoymada bu prinsiplərin  əsas məqsədidir ki, iqtisadi ədəbiyyatda bu, verginin maliyyə məqsədi adlandırılır. Dövləti gəlir və gəlir mənbələri ilə təmin etmək verginin meydana gəlməsinin və mövcud olmasının əsas səbəbidir. Dövləti gəlirsiz, dövlətin də vergilərini vergisiz təsəvvür etmək mümkün deyil. Hər bir tətbiq olunan vergi növü vətəndaşların mükəlləflərinin artırılmasına gətirib çıxarır.

Respublikamızda müasir dövrdə bazar iqtisadiyyatının inkişaf etməsi ilə vergi tətbiqində prinsiplər meydana çıxır.

Bazar iqtisadiyyatının inkişaf etməsi ilə tətbiq edilən ədalət prinsipi özünü əsas etibarilə vergi mükəlləflərinin gəlirlərindən alınan vergi faizində göstərir.

Ədalət prinsipinin ən mühüm tərkib hissəsi olan bərabərlik bütün vergi mükəlləflərinin eyni vergi ödəmələrini tələb edir. Lakin hər şeydə bərabərlik heç də ədalətlik demək deyildir. Məsələn, illik gəliri 1 milyon manat olan vergi mükəlləfləri 100 min manat vergi ödəyəcək. Beu zaman vergi müəyyənəşdirilərkən mükəlləflərin şəxsi vəziyyətləri nəzərə alınmalıdır.

Vergi sisteminin inkişafı ilə əlaqədar olaraq digər mühüm bir prinsip – müdaxilə prinsipi meydana gəlmişdir ki, bu prinsip vasitəsilə iqtisadiyyatın normal fəaliyyəti təmin olunur, sahələrində fəaliyyətin zəiflədilməsi işi həyata keçirilir. Ümumilikdə vergilər vasitəsilə iqtisadiyyata müdaxilənin aşağıdakı yolları vardır:

- İqtisadiyyata müdaxilə edilməsinin vergilərin artırılması və ya azaldılması ilə həyata keçirilməsi. Bu zaman vergilərin azadılması satılan malların qiymətini aşağı salır.

- İqtisadiyyata müdaxilənin ayırma yolu ilə həyata keçirilməsi. Burada vergilər ümumilikdə həcmi dəyişdirilmir, dolayı və birbaşa vergilərin müəyyən hissəsi iqtisadiyyata müdaxilə olunur.

- İqtisadi və sosial həyata yenidən bölgü yolu ilə müdaxilə edilməsi. Dövlətin daha yüksək gəlirləri vergi yolu ilə ələ gətirmək, aşağı gəlirlərə maliyyə yardımı göstərmək, subsidiyalar və ya eyni yardımlara müdaxilə etmək yolu ilə həyata keçirilir.

### 1.3. Dövlət büdcəsi gəlirlərinin proqnozlaşdırılmasının tərtibi işinin təşkili

Dövlət büdcəsi gəlirlərinin proqnoz layihəsi ölkənin iqtisadi və inzibati rayonların, mülkiyyət formasından asılı olmayaraq, bütün hüquqi şəxslərin cari və növbəti il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi əsasında hazırlanır. Adətən "Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası"nda əksini tapıb.

Büdcə gəlirlərinin formalaşdırılmasında qanunvericiliyə müvafiq qaydada alınan vəsaitlərin az da olsa payı vardır. Belə vəsaitlər rəsmi qaydada alınan ödənişlərdir. Bu transfertlərə xaricdən alınan və başqa səviyyəli büdcələrdən əldə olunan vəsaitləri aid edə bilərik. Azərbaycanda da real bazar iqtisadiyyatının formalaşmasının və işğaldan azad edilən ərazilərinin inkişafının təminatçısı ola biləcək ən başlıca struktur komponentlərindən sayılan xüsusi sahibkarlıq fəaliyyəti ilk növbədə sivilizasiyalı bazar iqtisadiyyatının real sarsılmaz bazasıdır.

Sahibkarlıq yeni biznes sahələrinin yaradılmasına, mövcud müəssisələrin yenidən qurulmasına, yeni texnologiyanın tətbiq edilməsinə, bütün yenilikçi və yardımçı təşəbbüslərə istinad edir. Qanunvericiliyə uyğun olaraq nəzərdə tutulmuş həcmdən çox büdcəyə ödənilmiş vəsaitlərin (vergilərin, rüsumların və s.) və daxilolmaların büdcədən geri qaytarılması büdcənin gəlirlərinin azaldılmasına şamil edilir.

2004-cü il 24 may tarixli 75 nömrəli dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsinə uyğun olaraq təqdim edilmiş hesabat və məlumatlarla yanaşı, aşağıdakılardan istifadə edilə bilər:

- Dövlət Statistika Komitəsi tərəfindən hər il fevralın 5-dək razılaşdırılmış formada təqdim edilmiş son 3 ilin statistik məlumatları;

- dövlət büdcəsinin mədaxil hissəsini təmin edən büdcə təşkilatları tərəfindən martın 1-dək İqtisadiyyat Nazirliyinin və Dövlət Gömrük Komitəsinin müraciəti əsasında növbəti il və növbəti üç il üçün əsas siyasət istiqamətlərinə dair təkliflər və onların hesablanması; büdcə qaydalarına uyğun olaraq büdcə xərclərinin maksimum həddi, büdcə sistemi haqqında qanuna uyğun olaraq zəruri olan məlumatlar;

- İqtisadiyyat Nazirliyi tərəfindən bu il martın 1-dək təqdim edilmiş ölkənin növbəti il və növbəti üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyasının icmal və proqnoz göstəriciləri, növbəti il üçün yaşayış minimumunun ilkin proqnozları ümumi və əsas sosial-demoqrafik qruplar, habelə növbəti il və növbəti üç il üçün dövlət investisiya proqramlarının istiqamətləri haqqında avqust ayı məlumatı, 1 il üçün təqdim edilmiş iqtisadi və sosial investisiya proqramının yenilənmiş variantı və dövlət büdcəsinin layihəsi gələn il;

- büdcədənkənar dövlət vəsaitləri hesabına:

1. Dövlət Sosial Müdafiə Fondu və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İşsizlik Fondu (rayon və şəhərlər daxil olmaqla) tərəfindən martın 1-dək təqdim edilmiş növbəti büdcə ili və növbəti üç il üzrə büdcə layihəsinin ilkin variantı; və iyulun 1-dən əvvəl. büdcə layihələrinin yenidən işlənmiş variantı;

2. Növbəti büdcə ili və növbəti üç il üçün büdcə layihəsinin ilkin variantı Dövlət Neft Fondu tərəfindən hər il fevralın 5-dək təqdim edilir.

- hər il martın 1-dək məqsədli büdcə vəsaitləri hesabına təqdim edilən növbəti üç il üçün büdcə layihəsinin ilkin variantı;

- hər il iyulun 1-dək növbəti ildə özəlləşdirməyə çıxarılan obyektlərin siyahısı və özəlləşdirmədən daxilolmaların proqnoz göstəriciləri;

- vergilər və dövlət rüsumları üzrə əvvəlki ildə tətbiq edilmiş və cari ildə gözlənilən güzəştlər və güzəştlər (vergilərin və dövlət rüsumlarının ayrı-ayrı növləri üzrə) haqqında hər il iyulun 1-dək İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilmiş məlumatlar, habelə İqtisadi Maraq Mərkəzinə hər il iyunun 15-dək yenidən uçota alınan vergi ödəyiciləri (şəhər və rayonlar üzrə əvvəlki ildə hesablanmış, azaldılmış, ödənilmiş və artıq ödənilmiş məbləğlər göstərilməklə) haqqında məlumat;

- Dövlət Gömrük Komitəsi tərəfindən hər il iyulun 1-dək təqdim edilmiş vergilər və gömrük rüsumları üzrə əvvəlki ildə tətbiq edilmiş və cari ildə gözlənilən güzəştlər və güzəştlər (vergilərin və gömrük rüsumlarının növləri göstərilməklə) haqqında məlumat;

- Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, nazirliklər, komitələr, dövlət orqanları və təşkilatları, dövlət səhmdar cəmiyyətləri, yerli icra hakimiyyəti orqanları növbəti il və növbəti üç il üçün dövlət investisiya proqramının layihəsini bu il martın 1-dək təqdim ediblər. il, məlumat və sənədlərin təqdim edilməsi, habelə bu məlumat və sənədlərin yenilənmiş variantı iyunun 1-dək;

İqtisadi mahiyyətinə görə dövlət büdcəsinin gəlirlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

-cari gəlirlər, həmçinin vergilər haqqında qanunvericiliklə təsdiq edilmiş dövlət gəlirləri, o cümlədən həmin vergilərə əsasən hesablanmış faizlər və müvafiq maliyyə sanksiyaları;

-daxili və xarici mənbələrdən əldə olunan qrantlar, transfertlər;

-dövlət rüsumları , gömrük rüsumları və yalnız birdəfəlik olan rüsumlar;

-əsas vəsaitlərin yaxud dövlət ehtiyatında olan əmtəə və xidmətlərin satışından, yaxud icarəyə verilməsindən əldə olunan gəlirlər;

-qanunvericiliyə müvafiq olaraq digər daxilolmalar;

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən istifadə edilən modelləri, habelə müxtəlif variantlarla ödəniş növləri üzrə proqnozlaşdırmanı müəyyən edir. Metodologiya əvvəlcə müxtəlif ölkələrdə sınaqdan keçirilmiş üsullardan bəhs edir. Daha sonra Maliyyə Nazirliyində dövlət büdcəsinin gəlirlərinin proqnozlaşdırılmasının hesablanmasında istifadə olunan metodologiya və modelləri daha ətraflı təsvir edir. Bir çox ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi də dövlət büdcəsinin gəlirlərinin proqnozlaşdırılmasında modellərdən yararlanır. Maliyyə Nazirliyində gəlirlər hər bir vergi növünə görə effektiv vergi dərəcələri tətbiq edilməklə proqnozlaşdırılır. Effektiv vergi dərəcələrindən istifadə etməklə proqnozlaşdırma ilə yanaşı, dövlət gəlirlərinin proqnozu hər bir ödəniş növü üzrə müvafiq ekonometrik modellərdən istifadə etməklə hesablanır.

Bazar iqtisadiyyatı ölkələrində sahibkarlar iqtisadi proseslərin əsas sosial təbəqəsidir. Həmin ölkələrin təcrübəsi göstərir ki, bu sosial təbəqənin fəaliyyəti üçün nə qədər əlverişli iqtisadi və qanun vericilik mühiti yaradılarsa, bu fəaliyyətə hökumət tərəfindən nə qədər çox əməli kömək göstərilərsə və sahibkarlar dövlətdən nə qədər razı qalarsa, bir o qədər də tez bir zamanda cəmiyyət qarşısında duran iqtisadi və sosial problemləri həll etmək, cəmiyyəti mənəvi cəhətdən sağlamlaşdırmaq və iqtisadi cəhətdən inkişaf etdirmək olar. Belə bir vəziyyət öz növbəsində hökuməti də sahibkarlara mövcud dövlət sisteminin müttəfiqi kimi yanşmağa və ölkədə zəruri sahibkarlıq mühitinin formalaşdırmağa və qoruyub saxlamağa sövq edir (Vəliyeva T.S. (1994) "İqtisad elmləri: nəzəriyyə və praktika", N 2.).

Azərbaycanın postmüharibə dövründəki yeni hədəfləri ilə bağlı strateji proqram həyata keçirilməsi və Azərbaycanın gələcək inkişafını təmin etmək baxımından ölkə ərazilərinin işğalı nəticəsində ölkə iqtisadiyyatına dəymiş ziyanın öyrənilməsi ilə paralel dövlət büdcəsinə azalan daxilolmaların öyrənilməsi və iqtisadi cəhətdən əsaslandırılması vavib məsələlərdən hesab edilir. Bu baxımdan işğaldan azad olunmuş rayonlar üzrə ölkənin dövlət büdcəsinə azalan daxilolmaların iqtisadi cəhətdən əsaslandırılması ilə bağlı dövlət büdcəsinin və

daxilolmaların mahiyyətini nəzəri cəhətdən tədqiqi bizim tərəfimizdən araşdırılmışdır. Qeyd edək ki, dövlət büdcəsi Azərbaycan Respublikasının Konstitusiyasına və "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsaslanır. "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu 18 may 1999-cu il tarixində Ümumimilli Lider Heydər Əliyev tərəfindən imzalanmışdır. Qanunda qeyd edilmişdir ki, dövlət büdcəsi lazım olan pul vəsaitinin qanunla müəyyən olunmuş qaydada yığılması və xərclənməsi formasıdır ("Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 18 may 1999-cu il, N 667-IQ). Dövlət büdcəsinin gəlirləri - qanunla müəyyən edilmiş qaydada dövlət büdcəsinə vergilərin, ödənişlərin, digər ödənişlərin və daxilolmaların məcmusudur ("Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 18 may 1999-cu il, № 667-IQ.).

Ekonometrik modellər iqtisadi sahədə cərəyan edən hadisələr nəticəsində dəyişiklikləri əks etdirmə cəhətdən olduqca ətraflı nəticələri ortaya çıxara bilir. Modeldə mövcud məlumatlar, əsasən 1997-ci ildən başlanıldığı üçün istifadə olunan ekonometrik modellər nisbətən sadə, lakin etibarlı hesab edilir.

Ən çox istifadəsinə rasatlanan modellərin aşağıdakılarını nəzərə çatdırmaq olar:

Ekonometrik modellər: (vaxt silsiləsi, struktur modellərlə birlikdə gəlirlərin proqnozlaşdırılması)

Hesablama

Mikrosimulyasiya modelləri

Şəxsi gəlir vergisi üçün

Gəlir vergisi haqqında

Dolayı vergilər üçün (ƏDV və aksizlər)

Ümumi balans hesabatının (CGE) hesablama modelləri.

Əksər inkişaf etməkdə olan ölkələr (təxminən 80%) inflyasiya və iqtisadi artımla artan proqnozlaşdırılan vergi bazasına tətbiq edilən effektiv vergi dərəcəsinə əsaslanan gəlirin hesablanmasının bəzi metodlarından istifadə edirlər. İnkişaf etmiş ölkələrin təcrübəsində ekonometrik modellər artımlı mikrosimulyasiya və Hesablanmış Ümumi Balans Balans (CGE) modellərinə

əsaslanır. Hazırda Maliyyə Nazirliyi dövlət büdcəsinin gəlirlərini proqnozlaşdırmaq üçün ETR modellərindən və ekonometrik modellərdən istifadə edir. ETR modelləri müəyyən vergilərə nəzarət etmək, həmçinin ekonometrik modellərin ardıcıllığını təmin etmək üçün istifadə olunur.

Azərbaycan Respublikasının vergi gəlirləri müxtəlif sektorların hərəkəti səbəbindən yığılır. Neftçıxarmadan toplanan daxilolmalar ARDNŞ və neftlə bağlı müxtəlif payların bölüşdürülməsi üçün bağlanan müqavilələrin əsasında mənfəət vergisi adında yığılır.

# II FƏSİL. ÖLKƏ ƏRAZİLƏRİNİN İŞĞALI NƏTİCƏSİNDƏ AZƏRBAYCANIN DÖVLƏT BÜDCƏSİNƏ AZALAN DAXİLOLMALARIN TƏHLİLİ

## 2.1. Ölkə ərazilərinin işğalı nəticəsində Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmaların iqtisadi cəhətdən əsaslandırılması

Azərbaycanda xalq, dövlət və ordu birliyinin gücü sayəsində işğaldan azad olunmuş torpaqlarımızda dinamik inkişaf modelinin yaradılması beynəlxalq standartlar səviyyəsində infrastrukturun formalaşmasına uyğun olaraq, həm də iqtisadi idarəetmə mexanizminin müasir çağırışlara uyğun qurulmasını təmin etməlidir. Sumqayıt Kimya Sənaye Parkının ilk daşının qoyulması mərasimində İlham Əliyev işğaldan azad edilmiş torpaqların bərpasına bir daha diqqət çəkərək qeyd etdi ki, biz inkişaf modeli qurmalıyıq, ondan sonra onu bütün başqa torpaqlara köçürə bilərik. Bu istiqamətlərdə hər gün real addımlar atılır. Yüksək kommunikasiya və texnoloji standartlara uyğun beynəlxalq hava limanının tikintisi, yolların tikintisi və bir sıra digər infrastruktur obyektlərinin formalaşdırılması üçün dünya əhəmiyyətli layihələr həyata keçirilir. Görülən işlər həm də iqtisadi idarəetmə baxımından çərçivəyə salınmalıdır. Bu yanaşma modeli növbəti mərhələdə başqa sahələrə də köçürülə bilər. İqtisadi potensialdan istifadə baxımından 2019-cu ildə Dağlıq Qarabağ iqtisadi rayonu üzrə 637 milyon 70 min manat, o cümlədən Ağdam rayonu üzrə 172 milyon 934 min manat, 138 milyon 652 manat vəsaitin çıxarılması faktlarını qiymətləndirmək olar. İqtisadiyyatın əsas sahələrinin məhsulunda Yuxarı Qarabağın payı 0,7 faiz, Kəlbəcər-Laçın iqtisadi rayonu isə cəmi 0,1 faiz təşkil edir. Bu o deməkdir ki, işğal olunmuş ərazilərimizin ümumi iqtisadiyyatda payı 30 ilə yaxındır ki, tam rəqəmsal olmayıb. Bu dövrdə erməni işğalı nəticəsində böyük iqtisadi potensialdan istifadə etmək mümkün olmadı. Yeni model formalaşan kimi öz inkişafında aparıcı qüvvələr səviyyəsinə çatdırılacaq.

Azərbaycan Respublikası büdcə gəlirləri vergitutma obyektlərinə, ödənişin müddətinə, vergi ödəyicilərinə, alınması üsullarına və digər kriteriyalarına görə də fərqlənir.

Büdcə gəlirləri vergilərdən, əsaslı gəlirlərdən, vergiyə aidiyyatı olmayan digər gəlirlərdən və rəsmi qaydada qəbul edilən vəsaitlərdən ibarətdir. Vergi gəlirlərinin əsas hissəsinə yenidən bölgü əsasında alınan (əməkhaqqı, dividendlər, mənfəət, ssuda faizi və s.) gəlirlər, yaradılmış dəyər və müvafiq yığım aid edilir.

Bazar iqtisadiyyatı şəraitində inkişaf edən respublikamız iqtisadiyyatın bir çox sahələrində davamlı inkişafı təmin etməklə həyata keçirdiyi islahatlar öz bəhrəsini vermişdir. Dövlət büdcəsi gəlirlərinin davamlı olaraq artırılmasında, cəmiyyətin həyat səviyyəsinin qaldırılmasında, iqtisadiyyatımızın daha da canlandırılmasında dövlətin həyata keçirdiyi maliyyə-büdcə islahatları öz töhfəsini vermişdir.

Cari ildə kənd təsərrüfatı sektorunda 37 tədbiri əhatə edən 5 proqramın həyata keçirilməsi üçün ümumilikdə 986 milyon manat nəzərdə tutulub. Qeyd olunan bu məlumatlar Maliyyə Nazirliyinin açıqlamasında göstərilmişdir. Qeyd olunan məlumat əvvəlki ilin təsdiq edilmiş büdcəsi ilə müqayisədə 43 milyon manat və ya 4,4 faiz çoxdur. Növbəti ildə proqnozlaşdırılan vəsaitin 6,6 milyon manatı yeni siyasət təşəbbüslərinin maliyyələşdirilməsi üçün nəzərdə tutulub.

Bu vaxtadək 273 yaşayış dağıdılıb yararsız hala gətirildiyi qeydə alınıb. İndi torpaqların elektron kadastr və kəmiyyət uçotu işlərinin aparılması, məqsədli təyinatına və hüquqi rejiminə uyğun kadastr məlumat bazasının yaradılması, torpağın keyfiyyətinin yoxlanılması və s. işlərinin yerinə yetirilməsi qarşıda duran əsas vəzifələrdir.

Heyvandarlıq sahəsində müvəqqəti istifadə üçün ayrılmış yay və qış otlaqlarının istifadə həmin torpaqların plansız və səmərəsiz istifadə olunmasına şərait yaradır ki, bu da dövlət büdcəsinə ödəniləcək vəsaitin yayınmasına gətirib çıxarır.

"Ölkə ərazilərinin işğaldan azad edilən ərazilərdə klasterlərin fəaliyyət sahələrinin yaradılması da zəruri məsələlərdən hesab edilə bilər. Müasir şəraitdə

iqtisadiyyatda klasterləşmə prosesi təsərrüfat sisteminin kompleks inkişafının səmərəli aləti kimi çıxış edir, rəqabətqabiliyyətli modelin seçilməsini şərtləşdirir, regionun (sahənin) mövcud potensialından maksimum istifadəyə imkan yaradır" (Əliyev A., Şəkərəliyev A. (2002) "Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti", Bakı, "İqtisad Universiteti", 440 səh.). Klasterlərin iqtisadi fəaliyyət sahələrində yaradılmasının vacibliyi "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi"ndə də prioritet istiqamətlərdən biri kimi qeyd edilmişdir (Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi (neft-qaz və kimya məhsulları daxil olmaqla) Bakı, 2016. 88səh.).

Artıq şanlı tarixə çevrilmiş 2020-ci il Azərbaycan Respublikasının dövlətçilik və müstəqillik Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğalçı Ermənistan üzərində qazanılan parlaq hərbi-siyasi qələbə ili kimi bütün dünya siyasətçiləri tərəfindən təhlil olunur. Qüdrətli ordumuzun rəşadəti və şəhidlərimizin qanı bahasına Ali Baş Komandanımızın polad iradəsi ilə qazanılan bu tarixi qələbə Azərbaycan dövlətinin gücünü bütün dünyaya göstərdi. Bədnam qonşularımız üçün 2020-ci il itirilmiş il sayılsa, bütün dünya azərbaycanlıları üçün bundan sonra 2020-ci il qazanılmış il sayılacaq, şərəfli il kimi xatırlanacaq. Tarixi torpaqlarını düşmən tapdağından azad edən Azərbaycan Respublikası yeni bir iqtisadi dövrə qədəm qoymuşdur.

Müharibənin gətirdiyi maddi və mənəvi itkilər, böhranlar və fəsadlarla yanaşı, 2020-ci ilin əvvəlindən yeni növlərin dünyada sürətlə yayılması iqtisadi fəallığın zəifləməsinə səbəb olub. Dünya bazarında neftin qiymətinin kəskin ucuzlaşması iqtisadi gərginliyi daha da artırıb. Dövlətin iqtisadiyyata təsirinin azaldılması, əhalinin sosial rifahının qorunması və iqtisadi inkişafın davamlılığının təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirlər ölkə iqtisadiyyatının tənəzzül mərhələsinə keçməsinə imkan vermədi. 2020-ci ildə büdcə mexanizmlərinin təkmilləşdirilməsi və xərclərin artırılması, əhəmiyyətli iqtisadi və sosial zəruri resursların olması respublika iqtisadiyyatını ciddi gərginliklərdən qorudu. Dövlət büdcəsindən, dövlət vəsaitindən və digər mənbələrdən maliyyə vəsaitləri səfərbər edilməklə ümumilikdə 3,5 milyard manatlıq dəstək zərfinin

əhatə olunması və ümumilikdə üç milyondan çox vətəndaşın əhatə olunması tədbirləri həyata keçirilib. Həyata keçirilən iqtisadi və sosial dəstək lahiyələri daha sonra onların əhatə dairəsini artırdı. Fakt budur ki, bütün çətinliklərə baxmayaraq, 2020-ci ildə ölkədə makroiqtisadi sabitlik yaranıb.

Büdcənin payının artırılması üçün növbəti stimullaşdırıcı tədbirlər nəzərdə tutulub. 2021-ci il üçün cari əməliyyatlar balansı ÜDM-in 0,2 faizi və ya təxminən 104,8 milyon dollar profisitlə proqnozlaşdırılır. Məqbul hesab edilsin ki, belə makroiqtisadi şərait üçün təqdim olunan 2021-ci il dövlət büdcəsinin gəlirləri 2020-ci ilin dəqiqləşdirilmiş büdcə gəlirləri ilə müqayisədə 1,303 milyon manat səviyyəsində proqnozlaşdırılır ki, bu da ümumi məbləği 25 milyard 427 milyon manat təşkil edir (https: / /www. taxes.gov.az/az/page/dunya-banki).

İşğaldan öncəki dövrdə ümumi daxili məhsulun 10-15 faizi Qarabağ iqtisadi regionunun payına düşürdüsə, biz bu statusu nəzərə alaraq dövlət büdcəsinin gəlirlərinin təqribi ortaq 12-14 faizini Qarabağ iqtisadi regionundan əldə edilən gəlirlərə aid edərək bu regionun işğalda olduğu müddət ərzində dövlət büdcəsinə daxil edə bilmədiyi büdcə gəlirinin kütləsini hesablaya bilərik.

**Cədvəl 2:** 1991-2019-cu illər ərzində büdcə daxilolmalarının miqdarı milyon manatla

| **İllər üzrə göstərici** | **Gəlirlərin cəmi** | **Qarabağa ad olan hissə** |
|---|---|---|
| 1991-1995 | 1136.4 | 159.1 |
| 1996-2000 | 2655.2 | 371.7 |
| 2001-2005 | 6480.6 | 907.3 |
| 2006-2010 | 42367.0 | 5931.4 |
| 2011-2015 | 58371.1 | 8172.0 |
| 2016-2019 | 88505.7 | 12390.8 |
| **1991-2019** | **199516.0** | **27932.2** |

**Mənbə:** Dövlət Statistika komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ümumilikdə, qeyd edək ki, 2010-cu ildən sonrakı illərdə ARDNŞ transferinin həcmi 45,8 faizədək artmışdır. Qeyri-neft sektorunda xidmətlərdən əldə olunan gəlirlərin xüsusi çəkisi 78 faizə çatıb. Qeyd edək ki, bu rəqəm 50 faizdən 78 faizə yüksəlib. Hesab edirik ki, dövlət büdcəsində 40 dollar/barel qiymət artımı təhlillərə uyğundur. Təşkilatların proqnozlarına görə, 2021-ci ildə neftin orta illik qiyməti 41-43 dollar/barel arasında dəyişəcək. Eyni zamanda, 2021-ci ilin ikinci rübündə peyvəndləmə nəticəsində iqtisadi fəallığın bərpası ilə

qiymət artımının 15 faizdən çox olması ölkə iqtisadiyyatı və büdcəsi üçün müsbət haldır. Azərbaycan Dövlətinin müdafiə qabiliyyətinin artırılması və təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş xərclərin artırılması rəğbətlə qarşılanmışdır. Dövlət büdcəsinin gəlir və xərcləri üçün riskli amillərin nəzərə alınması kriteriyaları vacib hesab edilir. Fövqəladə hal kimi pandemiyanın davam etmə müddətinin, neftin qiymətinin, məzənnə riskinin və dövlət borcu ilə bağlı risklərin müzakirə üçün hesab olunmalıdır. Bununla yanaşı, növbəti bir neçə Dövlət Neft Fondunun büdcəsinin kəsirlə proqnozlaşdırılması, fikrimizcə, fondun Azərbaycan iqtisadiyyatında gələcəkdə oynayacağı müsbət rolun daha da təkmilləşdirilməsinə rəvac verəcəkdir. Dövlət büdcəsi kəsirinin 3116 milyon manat məbləğində nəzərdə tutulur. Həcmi 252,2 milyon manat azaldılmışdır. Dövlət əmlakının həcmindən, daxili bazarda yerləşdiriləcək dövlət istiqrazları hesabına cəlb edilməsinin planlaşdırılması dövlət büdcəsi kəsirinin maliyyələşməsində müsbət hal kimi dəyərləndirilmişdir. Məsələyə bu istiqamətdə yanaşmanı qiymətli kağızlar bazarının inkişaf etdirilməsi yeni qaydaların hazırlanması ilə bağlı təqdim olunmuş layihələrdə bu planlara yer verilməsi bir çox iqtisadi riskləri aradan qaldırmağı təmin edəcəkdir.

Bu hissədə göstərilən cədvəldə biz oxşar ərazilərin gəlirləri metodu ilə müxtəlif illər aralığında büdcəyə daxil olmuş məbləğləri və Qarabağ iqtisadi regionu üçün hesablana biləcək gəlirlərin təqribi hesablanmış kütləsinə əsasən biz mənfəət vergisi üzrə Qarabağ iqtisadi regionundan daxil ola bilməyən fiziki şəxslərin gəlir vergisi və hüquqi şəxslərin mənfəət vergisinin ümumi kütləsini təqribi hesablaya bilərik.

**Cədvəl 3:** 1991-2019-cu illər ərzində büdcə daxilolmalarının miqdarına əsasən Qarabağ iqtisadi regionunun büdcəyə verə bilmədiyi mənfəət vergisinin miqdarı milyon manatla

| **İllər üzrə göstərici** | **Mənfəət vergisinin cəmi** | **Mənfəət vergisindən Qarabağa düşən hissə** |
|---|---|---|
| 1991-1995 | 686.9 | 96.2 |
| 1996-2000 | 845.1 | 118.3 |
| 2001-2005 | 1916.3 | 268.3 |
| 2006-2010 | 12234.8 | 1712.9 |
| 2011-2015 | 1625.8 | 2187.6 |
| 2016-2019 | 23128.9 | 3238.0 |

| | | |
|---|---|---|
| **1991-2019** | **54437.9** | **7621.3** |

**Mənbə:** Dövlət Statistika komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

2021-ci ilin dövlət büdcəsinin gəlirləri 25 milyard 427 milyon manat nəzərdə tutulmuşdur ki, bu da 2020-ci illə müqayisədə 1 milyard 303 milyon manat və ya 5,4 faiz çox deməkdir. 2022-ci il üçün dövlət büdcəsinin gəlirlərinin 11 milyard 651 milyon manatı və ya 45,8 faizi qeyri-neft sektoru üzrə daxilolmaların payına düşməklə, 2021-ci illə müqayisədə 1 milyard 517 milyon manat, yaxud 15 faiz çox olacaq. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə 2022-ci il dövlət büdcəsinə 7 milyard 250 milyon manat və ya bu 2021-ci ilin proqnozu ilə müqayisədə 60 milyon manat, 0,8 faiz çox vəsaitin təmin olunması nəzərdə tutulur.

Müharibənin gətirdiyi itkilər, böhranlar və fəsadlar,, iqtisadi fəallığın zəifləməsi, dünya bazarında neftin qiymətinin kəskin ucuzlaşması iqtisadi gərginliyi daha da artırmışdır.

İşğal olunan ərazilər iqtisadi fəal ərazilərə aid edildiyindən bu ərazilərdə dövriyyənin yüksək formalaşacağına əsasən, dövriyyə əsasında formalaşan əlavə dəyər vergisinin işğal dövründəki payını taparaq, bu statusu əsasında, dövriyyədən vergi əsasında formalaşan əlavə dəyər vergisinin işğal dövründəki itirilən ümumi kütləsini təqribi hesablaya bilərik. 1991-1995-ci illər ərzində bu verginin itirilən kütləsi 592.6 milyon manat, bunun Qarabağın payına düşən təqribi kütləsi 82.9 milyon manat təşkil etmişdir. 1996-2000-ci illər ərzində bu verginin itirilən kütləsi 704.5 milyon manat, bunun Qarabağın payına düşən təqribi kütləsi 98.6 milyon manat təşkil etmişdir. 2000-2005-ci illər ərzində bu verginin itirilən kütləsi 2050.5 milyon manat, bunun Qarabağın payına düşən təqribi kütləsi 287 milyon manat təşkil etmişdir. 2006-2010-cu illər ərzində bu verginin itirilən kütləsi 7923.2 milyon manat, bunun Qarabağın payına düşən təqribi kütləsi 1109.2 milyon manat təşkil etmişdir. 2011-2015-ci illər ərzində bu verginin itirilən kütləsi 13873.9 milyon manat, bunun Qarabağın payına düşən təqribi kütləsi 1942.3 milyon manat təşkil etmişdir. 2016-2021-ci illər ərzində bu verginin itirilən kütləsi 29797.6 milyon manat, bunun Qarabağın payına düşən təqribi kütləsi 3751.6 milyon manat

təşkil etmişdir. Aparılmış təhlildən meydana çıxan nəticəyə əsasən ötən 30 il ərzində dövriyyədən gəlirlərin miqdarının 12938.1 milyon manatı dövlət büdcəsinə daxil ola bilməyən daxilolmaların təqribi miqdarıdır.

Azərbaycan Dövlətinin müdafiə qabiliyyətinin artırılması və təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş xərclərin artırılması üçün riskli amillərin nəzərə alınması kriteriyaları vacib hesab edilir. Fövqəladə hal kimi pandemiyanın davam etmə müddətinin, neftin qiymətinin, məzənnə riskinin və dövlət borcu ilə bağlı risklərin müzakirə olunmalıdır. Bununla yanaşı, Azərbaycan iqtisadiyyatının gələcəkdəki müsbət rolun daha da təkmilləşdirilməsi üçün növbəti bir neçə ilin büdcəsinin kəsirlərinin proqnozlaşdırılması fikri müzakirə mövzusu olmalıdır. Daxili bazarda dövlət istiqrazlarının cəlb edilməsinin planlaşdırılmasına dövlət büdcəsi kəsirinin maliyyələşməsində və qiymətli kağızlar bazarının inkişaf etdirilməsində təqdim olunmuş layihələrdə yer verilmişdir. Bu isə müəyyən iqtisadi risklərin aradan qaldırmasını təmin edəcəkdir.

2022-ci il üçün Dövlət Gömrük Komitəsinin xətti ilə proqnozlaşdırılan 3 milyard 900 milyon manat daxilolma 2021-ci illə müqayisədə 70 milyon manat və ya 1,8 faiz çox olacaqdır. Büdcə təşkilatlarının ödənişli xidmətlərindən 700 milyon manat, sair daxilolmalar üzrə isə 247 milyon manat vəsaitin daxil olacağı gözlənilir. Qeyd etmək lazımdır ki, Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin məbləği 12,2 milyard manat təşkil edəcəkdir. Dövlət büdcəsinə Mərkəzi Bankın mənfəətindən ayırmalar 250 milyon manat, Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin təminat fondundan dövlət büdcəsinə 880 milyon AZN köçürmə proqnozlaşdırılır.

## 2.2. İşğaldan azad edilən rayonların iqtisadi inkişafın dayanıqlığına təsiri və ərazilərin iqtisadi potensialının təhlili

Respublikamız müstəqillik qazandığı ilk illərdə bazar iqtisadiyyatına keçid istiqamətində islahatlara başlanmış, 2015-ci ildə ümumdaxili məhsulda birdən-birə azalma yaşanmışdı. Bununla əlaqədar bir sıra iqtisadi islahatlar aparılmış və bunun nəticəsində neftdən asılılıq səbəbindən yaranan ÜDM səviyyəsinin aşağı

düşməsinin qarşısının alınması nəticəsində Respublikamızda ÜDM-nin səviyyəsi 2019-cu ildən etibarən 48.05 milyard yüksəlmişdir. Bu prinsipial yanaşma Hollandiya sindromunun simptomlarını aradan qaldırmaq üçün iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı Azərbaycan hökumətinin əsas makroiqtisadi üstünlükləri qiymət sabitliyi baxımından makroiqtisadi mühitin mövcudluğu, ÜDM-də xarici borcun aşağı olması, sabit məzənnə və ucuz işçi qüvvəsidir (Süleymanov E. (2014) “Problems Encountered during the Transition to Market Economy in Azerbaijan and Solution Attempts”, Expert Journal of Economics , Vol. 2, No. 2, p. 45-54.).

Ölkəmizdə Azərbaycanın postmüharibə dövründəki yeni hədəfləri ilə bağlı strateji proqram həyata keçirlir. Postmüharibə dövründəki yeni hədəfləri ilə bağlı işğaldan azad olunmuş torpaqlar bərpa olunan enerji növləri, qiymətli təbii sərvətlər, qızıl yataqları, mis yataqları, çaylar, su anbarları, kənd təsərrüfatı üçün münbit torpaq, turizm imkanları baxımından çox önəmli potensiala malikdir. Bu baxımdan azad olunmuş torpaqlar Azərbaycanın gələcək inkişafını təmin etmək üçün xüsusi rol oynaya bilər. Göstərilən istiqamət üzrə fəaliyyət isə nəzəri cəhətdən əsaslandırılmış iqtisadi qaydalara uyğun həyata keçirilə bilər. İqtisadi qayda – iqtisadi agentlər arasında qarşılıqlı münasibət prinsiplərini, eləcə də bu agentlərin maddi və qeyri-maddi nemətlərin istehsalı və mübadiləsi prosesində dövlətlə qarşılıqlı münasibətlərini əks etdirir. Əgər restributasiyalı iqtisadiyyat dövlətin direktiv planları çərçivəsində iqtisadi agentlərin davranışlarının sərt reqlamentləşdirilməsinə əsaslanırsa və onların yerinə yetirilməsini stimullaşdırırsa, bazar iqtisadiyyatının əsasında iqtisadi agentlərin rəqabət prinsipi durur, bu münasibətlərin inkişafının ən yüksək səviyyəsində isə agentlərin müxtəlif növ inteqrasiya edilmiş biznes qruplarda (IBQ) inteqrasiya prinsipi durur (Qradov A.P. (2008) “Milli iqtisadiyyat” 2-ci nəşri, (Rus dilindən tərcümə), Bakı: “İqtisad Universiteti”). Tarixi retrospektivdə üç növ iqtisadi qayda ayrılır: mərkəzdən idarə edilən iqtisadiyyat, azad (sərbəst) bazar, rəqabət qaydası (Oyken, B. (1995) “Основные принсипи экономической политики”, Прогресс. стр.98.).

Göstərilən istiqamət üzrə fəaliyyət isə nəzəri cəhətdən əsaslandırılmış iqtisadi qaydalara uyğun həyata keçirilə bilər. İqtisadi qayda – iqtisadi agentlər

arasında qarşılıqlı münasibət prinsiplərini, eləcə də bu agentlərin maddi və qeyri-maddi nemətlərin istehsalı və mübadiləsi prosesində dövlətlə qarşılıqlı münasibətlərini əks etdirir. Əgər restributasiyalı iqtisadiyyat dövlətin direktiv planları çərçivəsində iqtisadi agentlərin davranışlarının sərt reqlamentləşdirilməsinə əsaslanırsa və onların yerinə yetirilməsini stimullaşdırırsa, bazar iqtisadiyyatının əsasında iqtisadi agentlərin rəqabət prinsipi durur, bu münasibətlərin inkişafının ən yüksək səviyyəsində isə agentlərin müxtəlif növ inteqrasiya edilmiş biznes qruplarda inteqrasiya prinsipi durur.

Ölkəmizdə Azərbaycanın postmüharibə dövründəki yeni hədəfləri ilə bağlı strateji proqram həyata keçirlir. Postmüharibə dövründəki yeni hədəfləri ilə bağlı işğaldan azad olunmuş torpaqlar bərpa olunan enerji növləri, qiymətli təbii sərvətlər, qızıl yataqları, mis yataqları, çaylar, su anbarları, kənd təsərrüfatı üçün münbit torpaq, turizm imkanları baxımından çox önəmli potensiala malikdir. Bu baxımdan azad olunmuş torpaqlar Azərbaycanın gələcək inkişafını təmin etmək üçün xüsusi rol oynaya bilər.

Dağlıq Qarabağ münaqişəsi neftin qiymət təhlükələrdən idi. Xarici investorların ölkəyə cəlb edilməsi həll olunmamış sərhəd problemləri səbəbindən müharibə zonası olması səbəbindən risk etməyə imkan vermirdi. Lakin hazırkı şərait müharibədən sonrakı dövrdə investorların ölkəmizə investisiya yatırmaqda maraqlı olacağına zəmanət verir. Ancaq bununla belə, Respublikamıza qarşı bəzi Qərb ölkələrinin qərəzli məlumatlarını aradan qaldırmaq üçün hökumət iqtisadi-siyasət sahəsində taktiki addımlar atmağa böyük əhəmiyyət verir.

Bazar iqtisadiyyatı ölkələrində sahibkarlar iqtisadi proseslərin əsas sosial təbəqəsidir. Həmin ölkələrin təcrübəsi göstərir ki, bu sosial təbəqənin fəaliyyəti üçün nə qədər əlverişli iqtisadi və qanun vericilik mühiti yaradılarsa, bu fəaliyyətə hökumət tərəfindən nə qədər çox əməli kömək göstərilərsə və sahibkarlar dövlətdən nə qədər razı qalarsa, bir o qədər də tez bir zamanda cəmiyyət qarşısında duran iqtisadi və sosial problemləri həll etmək, cəmiyyəti mənəvi cəhətdən sağlamlaşdırmaq və iqtisadi cəhətdən inkişaf etdirmək olar. Belə bir vəziyyət öz

növbəsində hökuməti də sahibkarlara mövcud dövlət sisteminin müttəfiqi kimi yanşmağa və ölkədə zəruri sahibkarlıq mühitinin formalaşdırmağa və qoruyub saxlamağa sövq edir.

Ölkəmizdə Azərbaycanın postmüharibə dövründəki yeni hədəfləri ilə bağlı strateji proqram həyata keçirlir. Postmüharibə dövründəki yeni hədəfləri ilə bağlı işğaldan azad olunmuş torpaqlar bərpa olunan enerji növləri, qiymətli təbii sərvətlər, qızıl yataqları, mis yataqları, çaylar, su anbarları, kənd təsərrüfatı üçün münbit torpaq, turizm imkanları baxımından çox önəmli potensiala malikdir. Bu baxımdan azad olunmuş torpaqlar Azərbaycanın gələcək inkişafını təmin etmək üçün xüsusi rol oynaya bilər.

Aydındır ki, bazar azadlığı, dinamik tələb və təklifi, bazar infrastrukturunun genişlənməsini nəzərdə tutur. Rəqabət qabiliyyəti əsasən ondan ibarətdir ki, bazar iqtisadiyyatının mühüm hissəsinin nə qədər məhsul istehsal etməsi, istehsalçının istehlakçıya nisbətən üstünlüklərindən məhrum olması deməkdir. (Əliyev A., Şəkərəliyev A. (2002) "Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti", Bakı, "İqtisad Universiteti", 440 səh.).

Respublikamızdakı hazırkı vəziyyət şaxələndirmə məqsədli siyasət tələb edir. Hökumətin makroiqtisadi sabitliyi qorumaq siyasətini dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Asiya İnkişaf Bankı kimi təşkilatlar edir.

Büdcə gəlirlərinin formalaşdırılmasında qanunvericiliyə müvafiq qaydada alınan vəsaitlərin az da olsa payı vardır. Belə vəsaitlər rəsmi qaydada alınan ödənişlərdir. Bu transfertlərə xaricdən alınan və başqa səviyyəli büdcələrdən əldə olunan vəsaitləri aid edə bilərik.

Qanunvericiliyə uyğun olaraq nəzərdə tutulmuş həcmdən çox büdcəyə ödənilmiş vəsaitlərin (vergilərin, rüsumların və s.) və daxilolmaların büdcədən geri qaytarılması büdcənin gəlirlərinin azaldılmasına şamil edilir.

Rəşadətli ordu Dağlıq Qarabağ həll edilməsi 2020-ci ili ölkəmizin yaddaşında silinməz bir tarixə çevirdi. Azərbaycanın cənub-qərb ərazilərini 30 ilə yaxın müddət ərzində işğal altında saxlamış Minsk qrupunun vasitəçiliyilə həll

prosesini bilərəkdən təxirə salır, 1994-cü il atəşkəs sazişindən sonra formalaşmış status-kvonu itirməməyə çalışırdı.

İşğal olunmuş torpaqların azad edilməsinin respublika iqtisadiyyatının sürətli inkişafını təmin edəcəyi gözlənilir. Şuşanın mədəniyyət mərkəzi olan Cəbrayılı, Zəngilan, Qubadlı, Füzuli, Xocavəndi azad etməyə müvəffəq olan Azərbaycan daha üç rayondan - Ağdam, Kəlbəcər və Laçından da erməni qoşunlarını çıxarmağa nail oldu. Güclü iqtisadi siyasət nəticəsində o, öz tarixi torpaqlarına qayıda biləcək. Bu Böyük Qayıdış uzaqda deyil.

Azərbaycan hökumətinin təhlükəsizlik zəmanətləri və müharibənin qısa müddətli olması investorları sərmayə qoymağa daha inamlı edir. Azərbaycanın “Azərenerji” şirkəti ilə İtaliyanın “Ansaldo Energia” şirkəti arasında işğaldan azad edilmiş torpaqlarda enerji infrastrukturunun yaradılmasına dair müqavilənin imzalanmasını buna misal göstərmək olar.

30 ilə yaxın müddətdə Qarabağ ətrafındakı məskunlaşma zonaları istismar edildiyindən, ciddi şəkildə yenidən qurulması vacib olacaqdır. Bəzi hökumət mənbələrinə görə 10 il ərzində ərazinin minalardan tam şəkildə təmizlənməsi təxminən yekunlaşacaqdır.

Bölgənin təbii sərvətlərindən uzun illər ərzində heç bir istifadəyə edilmirdi və ölkədə yaşayan bir milyona yaxın qaçqın və məcburi köçkünlər hər ay sosial məvacib alırdılar, bu isə öz növbəsində dövlət gəlirlərində əsas problemlərdən idi.

İşğaldan əvvəl bizə 5 qızıl, 7 civə, 2 mis, 1 mis-qurğuşun-sink, 1 kömür və 11 mineral su daxil olmaqla 163 müxtəlif faydalı qazıntı yatağı məlum idi. Ermənistanla Kanadanın “First Dynasty Mines” şirkəti Azərbaycan Respublikasının işğal edilmiş rayonlarında təbii faydalı qazıntıların çıxarılmasına başlamaq üçün müqavilə imzalayıb.

İlham Əliyev rabitəni bərpa etmək üçün Bərdə-Ağdam dəmir yolunun tikintisi ilə bağlı göstəriş verib. Sərəncama əsasən, dəmir yolunun uzunluğu 45 km olacaq. “Azərbaycan Dəmir Yolları” QSC-nin prezidentinin ehtiyat fondundan 5 milyon manat. Ölkənin regional sisteminin bərpası xeyli fayda verəcək. Bu, Qarabağ bölgəsinin Azərbaycan iqtisadiyyatına inteqrasiyasını sürətləndirəcək.

Qeyd edək ki, üçtərəfli sazişə uyğun olaraq dəmir yolu və avtomobil yolunun tikintisinə başlanılıb və bu istiqamətdə xeyli iş görülüb. Xüsusilə Naxçıvan ərazisinə məhsul mübadiləsi zamanı qonşu ölkənin gömrük xidmətindən yararlanmağımız iqtisadiyyatı və əmək məhsuldarlığını zəiflədirdi. Neçə vaxtdan bəri gediş-gəliş üçün nəqliyyat imkanlarına malik olan Naxçıvana dəmir yolu və magistral yol çəkildikdən sonra Azərbaycan malları Türkiyəyə və Avropa bazarına daha asanlıqla çatdırılacaqdır ki, bu da iqtisadi səmərəliliyin artımına imkan verəcəkdir.

Araşdırmalar göstərir ki, işğal nəticəsində Azərbaycana ciddi maddi ziyan dəyib. Ermənistanın işğal etdiyi ərazilərdə 900-ə yaxın yaşayış məntəqəsi, 2389 sənaye və kənd təsərrüfatı obyekti, 131 minə yaxın yaşayış binası, 1025 məktəb, 798 səhiyyə obyekti təcavüzün qurbanı olub. Bundan əlavə, 280 min hektar meşə, 1 milyon hektara yaxın münbit torpaq, 1200 km suvarma sistemi işğalçıların əlinə keçdi. İşğalçılar 220 min baş mal-qaranı oğurladılar. Qarabağ müharibəsinə qədər Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının təqribən 35-40 faizi işğal altında olub və işğal zonalarına yaxın, normal təsərrüfat fəaliyyətinin mümkünsüz olduğu ərazilərdə istehsal edilib.

Nəticə etibarı ilə deyə bilərik ki, torpaqların ölkədə uğurlu iqtisadi islahatların aparılmasına, azad bazar iqtisadiyyatının yaradılmasına böyük təsiri olacaq. Turizm sektorunda iş yerlərinin yaradılması və ölkəyə investorların cəlb edilməsi iqtisadi səmərəliliyin artmasına töhfə verəcək. Lakin unutmaq olmaz ki, qısa müddətdə gözlənilən nəticələrin əldə edilməsi üçün bu sahədə səriştəli yanaşma və optimallaşdırmaya, şəffaflığa riayət etmək vacibdir. Bu sahədə səmərəlilik və keyfiyyətə nail olmaq üçün korrupsiyaya qarşı mübarizəni gücləndirmək, sahibkarlığa dövlət dəstəyini gücləndirmək lazımdır. Bazar iqtisadiyyatının əsas amili olan rəqabət Azərbaycanın təkcə regionda deyil, dünyada nüfuzunu daha da yüksəldə bilər.

### 2.3. Azərbaycan Respublikasında dövlət büdcə gəlirlərinin retrospektiv dinamikasının və mövcud vəziyyətinin təhlili

Büdcə gəlirləri iqtisadiyyatın sabit və dinamik inkişafını xarakterizə edən əsas sahələrdən biridir. Burada məqsədyönlü üsullardan və tərzlərdən təsiretmə vasitəsi kimi istifadə edilir. Bu təsiretmə metodları obyektiv iqtisadi proseslərə əsaslanır.

Gəlirlər və onların tərkibi büdcənin quruluşunda mühüm əhəmiyyət daşıyır. Büdcə gəlirlərinin ən az rüsumları və ixrac vergisi, torpaq vergisi, müvafiq qaydada 0,4 və 0,1% təşkil etmişdir.

Təqdim etdiyimiz təhlil 90-cı illərin əvvəllərini əhatə edir. Çünki, bu sahədə olan bazanın əsası məhz həmin illərdə formalaşmışdır. Burada digər dünya ölkələrinin praktikası da nəzərə alınmalıdır. ABŞ-da gəlirdən daxilolmalar və qeyri-vergi üstünlük təşkil edir. Həmin göstərici korporasiyaların gəlirdən daxilolmalarının həcmindən 400 faiz artıqdır. 2009-cu ildə fərdi gəlir vergisinin ABŞ-ın büdcə gəlirlərindəki xüsusi çəkisi 46%, şirkətlərinki isə 11% olmuşdur. Lakin Amerkiada korporasiyaların daxilolma sistemi ölkə daxilolmalarının toplanmasında əhəmiyyətli xüsusiyyət daşımır.

Ölkəmizdə Azərbaycanın postmüharibə dövründəki yeni hədəfləri ilə bağlı strateji proqram həyata keçirlir. Postmüharibə dövründəki yeni hədəfləri ilə bağlı işğaldan azad olunmuş torpaqlar bərpa olunan enerji növləri, qiymətli təbii sərvətlər, qızıl yataqları, mis yataqları, çaylar, su anbarları, kənd təsərrüfatı üçün münbit torpaq, turizm imkanları baxımından çox önəmli potensiala malikdir. Bu baxımdan azad olunmuş torpaqlar Azərbaycanın gələcək inkişafını təmin etmək üçün xüsusi rol oynaya bilər.

Respublikamızda dövlət müstəqilliyinin yenidən qurulmasının yaranma mərhələsi davam etdiyi səbəbindən daxilolmaların formalaşması sürətləndirilmişdir.

Vergili və qeyri-vergili gəlirlərin restrukturizasiyası Almaniya büdcə gəlirlərinin formalaşması prinsiplərinə uyğunlaşdırılmışdır.

2010-2020-ci illərdə ölkəmizin büdcə gəlirləri makroiqtisadi sabitlik meyllərinə əsasən dəyişikliklər baş vermişdir. Yalnız 2020-ciil büdcəyə daxilolmaların böyük payı, qeyri-vergili daxilolma sayılan ARDNŞ-dan ayırmalar nəticəsində bütünləşmişdir.

İqtisadi qayda iqtisadi agentlər arasında qarşılıqlı münasibət prinsiplərini, eləcə də bu agentlərin maddi və qeyri-maddi nemətlərin istehsalı və mübadiləsi prosesində dövlətlə qarşılıqlı münasibətlərini əks etdirir. Əgər restributasiyalı iqtisadiyyat dövlətin direktiv planları çərçivəsində iqtisadi agentlərin davranışlarının sərt reqlamentləşdirilməsinə əsaslanırsa və onların yerinə yetirilməsini stimullaşdırırsa, bazar iqtisadiyyatının əsasında iqtisadi agentlərin rəqabət prinsipi durur, bu münasibətlərin inkişafının ən yüksək səviyyəsində isə agentlərin müxtəlif növ inteqrasiya edilmiş biznes qruplarda inteqrasiya prinsipi durur.

Bu problemlərin həlli büdcə vəsaiti hesabına həyata keçirilir. İqtisadi inkişafın əsas mənbəyi kimi çıxış edir.

İqtisadi inkişafın təmin edilməsində büdcə gəlirlərinin rolu ondan ibarətdir ki, büdcə vəsaitlərinə əsaslanan dövlət yardımı nəticəsində iqtisadiyyatın nisbətən zəif inkişaf etmiş sahələrində inkişafa nail olmaq olar. Büdcə gəlirlərinin bir hissəsi dövlət və bələdiyyələr arasında bölüşdürülür, ödəyicilər arasında maliyyə münasibətləri qurulur. Bununla belə, müxtəlif səviyyəli büdcələrin gəlir hissəsi təşkil edilir ki, bu da onların ümumi xüsusiyyətlərini göstərir. Büdcənin bütün səviyyələri üçün səciyyəvi olan nağd və nağdsız formada gəlirlərin alınması ilə xarakterizə olunur.

“Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun IX maddəsinə əsasən, büdcə gəlirləri aşağıdakı bölmələr üzrə formalaşır:

- vergilərdən gəlir;

- vergidənkənar gəlir;

- Kapitaldan gəlir;

- Rəsmi olaraq alınan vəsaitlər (köçürmələr). (“Büdcə sistemi haqqında” Azərbaycan Respublikasinin Qanunu. Bakı şəhəri, 2 iyul 2002-ci il № 358-IIQ).

Vergi olmayan gəlirlər də büdcə gəlirlərinin formalaşmasında mühüm yer tutur. Rüsumlar, inzibati tədiyyələr, cərimə və sanksiyalar üzrə daxilolmalar vergi olmayan gəlirlərə aiddir.

Bundan əlavə, kapital gəlirləri büdcə gəlirləri ilə sıx bağlıdır və özəlləşdirmədən, dövlət maddi ehtiyatlarının satışından, torpaq və qeyri-maddi aktivlərin satışından əldə olunan gəlirlər kapital gəlirlərinə daxildir.

Vergi daxilolmaları və qeyri-vergi daxilolmaları cari büdcə gəlirlərinin ümumi məbləğini təşkil edir. Büdcənin məcmu mədaxil hissəsini digər gəlirlərlə yanaşı kapital gəlirləri və rəsmi daxil olan vəsaitlər təşkil edir.

Büdcə sisteminə bütün və ardıcıl olaraq vergidən kənar gəlir mənbələrinin daxil edilməsi ölkənin büdcə qanunvericiliyinə uyğundur. Bu səbəbdən də dövlət büdcəsinin gəlirlərinin büdcə dairələri arasında bölüşdürülməsi qanunvericilik əsasında həyata keçirilir.

Gəlirlərin büdcələr arasında bölüşdürülməsi kimi bir sıra prinsiplərə bəzən istinad edilir:

Büdcə gəlirləri ərazinin iqtisadi inkişafından asılı olan gəlirlər hesabına təmin edilməlidir.

Nağd pul kəsirinin formalaşdırılması, ödənişlərin il ərzində sabit və fasiləsiz daxil olmasını təmin etmək.

Dövlət büdcəsinin mədaxil planının icrasında yerli özünüidarə və idarəetmə orqanlarının məsuliyyətini və maliyyə marağının artırılması lazımdır.

Gəlirlər hər bir büdcənin xərcləri səviyyəsində büdcələr arasında tarazlaşdırılmalıdır (“Dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 18 may 1999-cu il, N 667-IQ).

Respublikanın qanunvericiliyinə uyğun olaraq respublikanın halqalarının gəlirlərinə aşağıdakılar daxildir:

Respublika qanunvericiliyi ilə müəyyən edilmiş vergilər, rüsumlar və digər daxilolmalardan ibarət olan Dövlət büdcəsinin gəlirləri. Bura daxildir: gəlir vergisi; Korporativ gəlir vergisi; yol və gömrük rüsumları; ƏDV; korporativ əmlak, aksiz, hüquqi şəxslərin torpaq vergisi; faydalı qazıntıların hasilatı vergisi; əmlak və

sahibkarlıq fəaliyyətindən gəlirlər; cərimələr və sanksiyalar üçün qəbzlər; digər qeyri-vergi daxilolmaları və s.

Yerli bələdiyyələrin yerli büdcənin gəlır olan hüquqi üsullar tətbiq etməklə müxtəlif qeyri-vergi ödəmələri (yığım, cərimə, rüsum) hesabına həyata keçirilir. Mülki hüquqi üsulda bələdiyyə mülkiyyətinin özəlləşdirilməsindən, müvafiq əmlakın, torpağın icarəsindən, yerli lotoreyalardan əldə olunan gəlir hesabına həyata keçirilir.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun əvəzsiz olaraq yerli özünüidarəetmə orqanlarının sərəncamına daxil olan pul vəsaitləri yerli büdcələrin qeyri-vergili gəlirlərini təşkil edir.

Digər tərəfdən müvafiq qanunla, onların tətbiq edilməsi qaydaları isə ərazilər üzrə bələdiyyələrin qərarı ilə müəyyənləşdirilir. Bələdiyyələr yerli əhəmiyyətli tədbirlərin maliyyələşdirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş qaydada qərarlar qəbul edə bilər. Nəzərə almaq lazımdır ki, könüllü birdəfəlik ödənişlər müəyyən istiqamətdə məqsədli təyinat üzrə istifadə olunur.

Bir çox rayon və şəhərlərində yerli büdcələrin gəlirlərinin xüsusi mənbələri, yəni yerli qeyri-vergi ödənişlər onların xərclərinin ötürülməsini təmin etmir. Belə olduğu halda yerli özünüidarəetmə orqanlarının öz vəzifələrini yerinə yetirməsi çətinləşir və bu zaman yerli büdcələrin gəlirlərinin tənzimlənməsi tələb edilir.

Respublikamızın büdcə sisteminin təşkili hər bir büdcə növü müvafiq dövlət hakimiyyəti orqanlarının vəzifələrini maliyyə vəsaiti hesabına yerinə yetirsin. Bu baxımdan qanunla təyin edilmiş vergilər büdcələr arasında gəlir mənbəyi ilə təmin edilsin. Ona görə də hər il mədaxil və məxaric müəyyən edilərkən bütün büdcələrin müstəqil gəlir mənbəyi də müəyyənləşdirilir. Dövlət özünün büdcə siyasətində ilk növbədə büdcənin gəlir hissəsini tədricən yerli mənbələr xərclər arasında tarazlıq ümumi daxili məhsula nisbətini azaltmağa çalışır.

Büdcə siyasətinin təmin olunması məqsədi büdcə kəsiri üzrə tədbirlərin həyata keçirilməsi proqnozları hazırlanır.

Gəlirlər:

daxili Məhsulun strukturuna və sahə quruluşuna;

gəlirlərin büdcəyə təmin olunması yüksəldilməsini təmin edilməsi;

neft məmulatlarının və emal edilməmiş neftin satılması zamanı ölkəyə daxilolmaların böyük ölçüdə çoxaldılması;

neftlə əlaqədar olmayan sektorda daxilolmaların yığılması məqsədi ilə layihələrin həyata keçirilməsi;

ayrı-ayrı fiziki şəxslərin vergiyə cəlb edilməsinin təmin edilməsi;

əldə olunan vergilərin yığılması sahəsində müvafiq orqanların strukturunun təkmilləşdirilməsi;

ayrı-ayrı sahələr üzrə investisiya qoyuluşları üçün nəzərdə tutulmuş güzəştlərin təkmilləşdirilməsi;

müasir texnologiyaya əsaslanan sosial sığorta haqlarının yığılması mexanizminin tətbiq edilməsi;

ƏDV-nin tətbiqi sahəsinin genişləndirilməsi;

dövlət orqanları tərəfindən göstərilən müxtəlif xidmətlərin müqabilində alınan dövlət rüsumları sənədlərə yenidən baxılması.

Büdcə sisteminə daxil olan bütün büdcə sahələri dövlət qanunvericiliyinə uyğun olaraq bir-biri ilə qarşılıqlı əlaqədə olur və bu əlaqələr zamanı büdcə sahələri arasında maliyyə münasibətləri yaranır.

Dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və qanuni yerli büdcələrə ilin müəyyən dövrü üçün ödəniş əsasında verilən vəsait büdcə kreditləri hesab edilir.

Subsidiyalar müəyyən məqsədli tədbirlərin maliyyələşdirilməsi üçün büdcədən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə köçürülən və bu məqsədlə müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan vəsaitdir.

Subsidiya fiziki şəxslərə qaytarılmamaq şərti ilə dövlət büdcəsindən başqa büdcəyə köçürülən maliyyə mənbəyidir.

Bununla belə, qeyd etmək lazımdır ki, subsidiyalar respublika büdcəsindən büdcəyə maliyyə yardımı forması kimi müəyyən çatışmazlıqlara malikdir. Onların stimullaşdırıcı xüsusiyyətlərinin olmaması bu üsulların çatışmadığı mühüm

xüsusiyyətdir. Bu yanaşma ərazilərdə iqtisadi proseslərə təsir etmək üçün yerli hakimiyyət orqanlarının məsuliyyətini azaldır, maliyyə nəzarətini zəiflədir, yerli hakimiyyət orqanlarında iqtisadi təşəbbüskarlığın inkişafına mane olur.

Təbii ki, subsidiya və subsidiyalarla bağlı çatışmazlıqları aradan qaldırmaq mümkün deyil. Bu ona görədir ki, ayrılan vəsaitlər subsidiyalaşdırılmalı, subsidiyalaşdırılmalı və ətraf mühitin, muzeylərin və tarixi abidələrin saxlanması üçün həmin rayon və şəhərlərin büdcələrinə subsidiya verilməlidir.

## 2.4. Ölkə ərazilərinin işğalı nəticəsində Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmalarin statistik təhlili

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi siyasətin strateji məqsədləri azad bazar münasibətlərinə əsaslanan sosialyönümlü, çoxşaxəli milli iqtisadiyyatın formalaşdırılmasıdır. Davamlı və dinamik inkişaf dayanıqlı xarakterə malikdir. Dayanıqlı inkişaf trayektoriyasına keçid məqsədyönlü proses olmuşdur və bu mənada bazar mexanizminin spontan təbiəti ilə təşkil edilə bilməz. Bazar kriteriyaları – bəşəri dəyərləri (ədalətlilik və s.) ehtiva etmir. Bu mənada, "…Hətta ən effektiv bazar sistemi belə, kəskin bərabərsizlik yarada bilər" (Самуэльсон П., Нордхаус У. (1992) "Роль правительства в рыночной экономике", Америка, стр.19.). Dayanıqlı inkişaf şəraitinin formalaşdırılmasında əsas rol dövlətə aiddir. Dövlətin əsl təyinatı – iqtisadi artımın, sabitliyin və iqtisadi effektivliyin stimullaşdırılmasıdır (Самуэльсон П., Нордхаус У. (1992) "Роль правительства в рыночной экономике", Америка, стр.19.).

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası öz suveren hüquqlarını həyata keçirməyə və iqtisadi sahədə müstəqil siyasət yeritməyə başladı. Bu siyasətin əsas bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil edirdi. "Azərbaycan iqtisadiyyatı" adlı dərslikdə yazılır: "Sovet hakimiyyəti illərində Azərbaycan iqtisadiyyatının inikşafındakı nailiyyətlərin başlıca səbəblərindən biri o zaman bir sıra ərazilərə nisbətən onun təbii sərvətlərinin daha ətraflı öyrənilməsi olmuşdur". Daha sonra orada

yazılmışdır: "Sovet İttifaqının tərkibində Azərbaycan üçün belə bir xüsusiyyət də daima səviyyəvi olmuşdur ki, onun bir sıra təbii sərvətlərinin istifadəsi bütövlükdə ölkənin iqtisadi qüdrətinin möhkəmləndirilməsi mənafelərinə tam cavab verirdi" (Süleymanov E.B. (1998) "Azərbaycan iqtisadiyyatı" (dərslik). Bakı, səh. 51-52.).

Müstəqillik dövrünün 1991-1995-ci illərə aid olan iqtisadi xaos dövründə torpaqlarımız işğala məruz qalmışdır. 1996-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü isə işğalda olan ərazilərimizi əhatə edə bilməmişdir. Azərbaycan Respublikası iqtisadi rayonlarının 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illərin sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramında işğal ərazilərinin iştirakı qeyri-mümkün olmuşdur. Eləcə də yoxsulluğun azaldılması proqramı, davamlı inkişaf Dövlət Proqramı, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı və bir sıra sahəvi inkişaf proqramları işğalda olan ərazilərdə Azərbaycan vətəndaşının olmaması səbəbindən kənarda qalmışdır.

Ölkənin inkişaf vektorunun seçimində iki yanaşma mövcuddur:

1) Qloballaşma: inkişaf yolu və hədəflər əksər ölkələr üçün eynidir;

2) Sivilizasiyalı baxış: müxtəlif ölkələrin inkişaf trayektoriyası və məqsədləri müxtəlifdir (Рустамов Э. (2009) "Принципы эволюционной модернизации переходных экономик", Вопросы экономики, № 6, стр.85.). Bir sıra tədqiqatlarda qeyd olunur ki, qloballaşma prosesi qlobal səviyyədə inkişafın "…sinxronlaşdırılması və unifikasiyası" prosesidir (Качуровский Е.П. (2012) "Современная мировая экономика", Минск, Белпринт, стр.43.). İqtisadçı alim V.A.Bayramov hesab edir ki, yanaşma tərzi həm nəzəri, həm də praqmatik nöqteyi-nəzərdən müasir iqtisadi gerçəkliyin daxili məntiqinə ziddir (Bayramov V.A. (2019) "Milli iqtisadiyyat konsepsiyası: dayanıqlılıq problemi" (monoqrafiya), Bakı, "AVROPA", 304 səh.).

1993-cü ildən sonra Azərbaycan Respublikasının digər ərazilərində 250-yə qədər yeni faydalı qazıntı yataqları aşkarlandığı və bir sıra yataqların istismarından Dövlət büdcəmizə real gəlirlər daxil olduğu halda, 30 ildir ki, Azərbaycan tərəfi işğal altında olan ərazilərdə faydalı qazıntılardan, geoloji tədqiqatlardan, meşə təsərrüfatından, zəngin mineral-xammal bazasından, kənd təsərrüfatı üçün yararlı

sahələrdən iqtisadiyyatın inkişaf etdirilməsi xeyrinə heç bir gəlir əldə edə bilməmişdir. “Ölkə qızılın kəşf olunmuş və qiymətləndirilmiş ehtiyatlarına görə İran, Türkiyə, Əlcəzair, Böyük Britaniya, Almaniya və s. kimi dövlətlərlə bir sırada yer alır. 30 il ərzində ölkə əraziləri ermənilər tərəfindən işğal zonasında qalmış Qızılbulaq, Vecnəli və Söyüdlü (Zod) məxsusi qızıl filizi yataqlarının istismara cəlb olunması, respublikada qızılçıxarma sənayesinin planlı hasilatın aparılması işi pozulmuş, sənayenin digər sahələrinin unkişafına fondu yaradılması baş verə bilməmişdir. Torpaqlarımızın işğal edilməsi nəticəsində bu qızıl yataqlarının ehtiyatları ermənilər talan etmişdir”. (Məmmədov R.F., Məmmədov X.R. (2017) “Müasir beynəlxalq hüquq nöqteyi-nəzərindən Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qanunsuz və hüquqa zidd fəaliyyəti”, Bakı, “MM-S”, 260 səh.).

Ermənistanın ərazilərimizi işğal etməsinin ən dəhşətli və faciəvi cəhəti böyük insan itkiləri və mənəvi iztirabları ilə müşayiət olunan onların qeyri-insani hərəkətləri olmuşdur. Erməni təcavüzkarlarının insanlığa sığmayan saysız-hesabsız nümunələri tarixi faktlarda öz əksini tapmışdır.

Dinc əhalinin, mülkü şəxslərin, qadınların, uşaqların, qocaların qəddarlıqla qətlə yetirilməsi, Xocalı faciəsinin törədilməsi erməni təcavüzkarlığının bariz nümunəsidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələrinin hücum etməsi nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər əsir götürülmüşdür. Erməni təcavüzkarlığının sosial-mədəni və iqtisadi sahələrdə dağıdıcı nəticələrini aşağıdakı cədvəl məlumatlarında görmək olar:

**Cədvəl 4:** Erməni işğalçıları tərəfindən dağıdılmış, yandırılmış və talan olunmuş bəzi obyektləri və işğal olunan ərazi və əhalinin göstəriciləri

| № | İşğalda olunan ərazilər | İşğal olunub | Erməni işğalçıları tərəfindən dağıdılmış, yandırılmış və talan olunmuşdur | Ərazi km² | Əhali (nəfər) | İşğaldan azad olunub |
|---|---|---|---|---|---|---|
| 1 | Xankəndi | 26.12. 1991 | • 61 Sənaye,tikinti obyektləri<br>• 694 Mədəni - məişət obyekti<br>• 140 Rayon,qəsəbə və kənd<br>• 103 Tarixi abidə<br>• Dövlət incəsənət teatrı və şəhər mədəniyyət evi | 926 | 57000 | |
| 2 | Ağdam | 23.07. 1993 | • 48 Sənaye və tikinti obyekti<br>• 598 Mədəni – məişət obyekti | 1154 | 158 000 | 20.11.2020 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | • 122 Qəsəbə və kənd<br>• 27 Tarixi abidə<br>• Dövlət dram teatrı | | | |
| 3 | Xocavənd | 02.10. 1992 | • 75 Mədəni – məişət obyekti<br>• 19 Qəsəbə və kənd<br>• 15 Tarixi abidə | 1458 | 9011 | |
| 4 | Xocalı | 26.02. 1992 | • 29 Sənaye və tikinti obyekti<br>• 80 Mədəni - məişət obyekti | 970 | 11567 | |
| 5 | Şuşa | 08.05. 1992 | • 27 Sənaye və tikinti obyekti<br>• 103 Mədəni – məişət obyekti<br>• 31 Şəhər, qəsəbə və kənd<br>• 249 Tarixi abidə və muzeylər<br>• 17 Tarixi abidə | 289 | 24900 | 08.11.2020 |
| 6 | Cəbrayıl | 23.08. 1993 | • 197 Mədəni – məişət obyekti<br>• 90 Qəsəbə və kənd | 1050 | 52 049 | 04.10.2020 |
| 7 | Füzuli | 23.08. 1993 | • 145 Mədəni – məişət obyekti<br>• 54 Qəsəbə və kənd<br>• 15 Tarixi abidə | 1112 | 95940 | 17.10.2020 |
| 8 | Laçın | 18.05. 1992 | • 575 Mədəni–məişət obyektlərinin sayı<br>• 126 Qəsəbə və kəndlər<br>• 10 Şəhər, qəsəbə və kəndlər<br>• 12 Tarixi abidələr | 1835 | 60 000 | 01.12.2020 |
| 9 | Kəlbəcər | 02.04. 1993 | • 29 Sənaye və tikinti obyektlərinin sayı<br>• 134 Mədəni–məişət obyektlərinin sayı<br>• 132 Qəsəbə və kəndlər<br>• 87 Tarixi abidələr | 3054 | 55 000 | 25.11.2020 |
| 10 | Qubadlı | 31.08. 1993 | • 205 Mədəni-məişət obyektlərinin sayı<br>• 94 Qəsəbə və kəndlər<br>• 12 Tarixi abidələr | 802 | 33800 | 25.10.2020 |
| 11 | Zəngilan | 29.10. 1993 | • 138 Mədəni-məişət obyektlərinin sayı<br>• 81Qəsəbə və kəndlər<br>• 13 Tarixi abidələr | 707 | 35 500 | 20.10.2020 |

**Mənbə:** (http://sfdi.gov.az/az/qarabagi-unutma)

Cədvəl məlumatlarına diqqət yetirsək görərik ki, Azərbaycanın Dağlıq Qarabağ və onun ətrafında olan ərazinin böyük hissəsi, 1989-1993-cü illərdə Ermənistan tərəfindən işğal vaxtından işğaldan azad olunduğu tarixədək, səmərəsiz şəkildə istifadə edilməsi səbəbindən regionun infrastrukturu minimum dərəcəyə çatdırılıb. Buna görə də, işğaldan sonrakı dövrdə yenidən qurma prosesi bütün infrastrukturu (yollar, qaz, su, elektrik enerjisi, rabitə), yaşayış üçün vacib olan vəziyyətin yaradılmasından başlayaraq, növbəti addımda isə iqtisadi inkişaf planlarına addım atılmalıdır.

İlkin araşdırmalar əsasında müəyyən olunmuşdur ki, torpaqların itirilməsi səbəbindən ölkəmiz öz iqtisadi gücünün on altı faizini itirmiş, iqtisadiyyata altmış mlrd. dollardan çox zərər vurulmuşdur.

Kanadanın "First Dynasty Mines" (FDM) şirkəti Azərbaycanın işğal olunmuş ərazilərində Kəlbəcərdə "İva" qızıl yatağının işlənməsi ilə məşğuldur. Yatağın qızıl ehtiyatı 40 ton qiymətləndirilir. əmanətin 73%-i, yəni. 29,2 ton qızıl işğal altında olan Kəlbəcər ərazisinin payına düşür. Qızılın hazırkı qiymətləri ilə Azərbaycan tərəfinə dəyən zərər 600 milyon dollardan 1 milyard dollara qədərdir.

Vandalların hücumu səbəbindən minlərlə ha. əkinçilik üçün əhəmiyyətli olan ərazilər yararsız vəziyyətə gətirilmişdir. Torpaq haqqında elmin banisi, görkəmli rus alimi V.V.Dokuçayev "Bəşəriyyət qızılsız da keçinə bilər, lakin torpaqsız yaşaya bilməz" demişdir. (Məmmədov R.F., Məmmədov X.R. (2017) "Müasir beynəlxalq hüquq nöqteyi-nəzərindən Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qanunsuz və hüquqa zidd fəaliyyəti", Bakı, "MM-S", 260 səh.).

İşğaldan azad olunmuş rayonlarda metalların regionda mövcudluğu ilə bağlı araşdırmalar və geoloji işlər aparıla bilər. Bu istiqamətdə dövlətin investisiyalarına ehtiyac yaranır. C.M.Keynsə görə xüsusi investisiya iqtisadiyyatın qeyri-sabitliyinə şərait yaradır. Dövlət bu prosesin həyata keçirilməsində müsbət rol oynaya bilər (Kempbell R., Makonnell, Stenli L.Brö. (1992) "Ekonomiks", Bakı, 321 səh.).

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"inə əsasən qarşıdakı onillikdə müəyyən hədəflərə çatmalıdır ki, bunlara rəqabətli kütlə, ədalətli sosiologiyaya sahib mühit, modern tenologiyalar mühiti, işğaldan qurtulan torpaqlara böyük qayıdış və "yaşıl artım" ölkəsi daxildir.

Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi başlıca istiqamətlərdən biridir.

Təsdiq olunmuş Milli Prioritetlərdə dövlətimizin 5 strateji prioritetləri müəyyən edilib:

davamlı, artan rəqabət qabiliyyətli iqtisadiyyat;

dinamik, inklüziv və sosial cəhətdən ədalətli cəmiyyət;

rəqabət qabiliyyətli insan kapitalı və müasir innovasiyalar üçün məkan;

azad edilmiş ərazilərə böyük qayıdış;
təmiz ətraf mühit və ölkənin "yaşıl artım" ölkəsi.

Bu strateji prioritetlər erməni işğalından azad edilmiş ərazilərdə iqtisadiyyatın bütün sahələrində qısa müddət ərzində sürətli dinamik inkişaf özünü göstərməkdədir. Artıq böyük inamla və əminliklə söyləyə bilərik ki, Azərbaycan 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Bu istiqamətdə kreativ iqtisadiyyatın inkişafını əsas istiqamətlər kimi qəbul etmək lazımdır. Araşdırma göstərir ki, kreativ iqtisadiyyatın ÜDM-dəki payı 11,1% (ABŞ), 1,58% (Bruney) qədər dəyişməkdədir, özü də 30 ölkə üzrə 5,42% orta qiymətlə. Orta qiyməti 5,42%-dən çox olan göstəricini güclü iqtisadi inkişafı keçmiş ölkələr nümayiş edir. Azərbaycanın postmüharibə dövründəki yeni hədəfləri ilə bağlı strateji proqramın həyata keçirilməsində və Azərbaycanın gələcək inkişafını təmin etmək baxımından ölkə ərazilərinin işğalı nəticəsində ölkə iqtisadiyyatına dəymiş ziyanın aradan qaldırılmasında kreativ iqtisadiyyata daha çox diqqət yetirmək doğru olardı.

Ötən bu 30 il ərzində işğal altında olan rayonlar üzrə dövlət büdcəsinə hüquqi cəhətdən daxil olmalı olan daxilolmalar öz əksini tapa bilməmişdir. Bu da Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmalar kimi bir münasibəti yaratmışdır.

İqtisadçı alimlərimizin əsas vəzifələrindən biri də Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmaların təhlil edilməsi, mövcud reallıqların ictimaiyyətə və beynəlxalq qurumlara çatdırmalsıdır. Azərbaycan iqtisadiyyatının fəaliyyət sahələrindən sayılan kənd təsərrüfatı, ovçuluq və meşəçilik məhsulları, dağ mədən sənayesinin məhsulları və s. kimi sahələrdən büdcəyə daxilolmalar mümkün olmamışdır.

Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmaların sırasına faydalı qazıntıların fəaliyyətindən aid olunanları da qeyd edə bilərik.

Aşağıdakı cədvəldə işğaldan azad olunmuş rayonlar üzrə Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmaların iqtisadi cəhətdən əsaslandırılması üçün ayrı-ayrılıqda hansı faydalı qazıntıların olduğu verilir:

**Cədvəl 5:** İşğaldan azad olunmuş rayonlar üzrə faydalı qazıntlarən növləri

| Rayonun adı | Faydalı qazıntı növü |
|---|---|
| Füzuli | Mişar daşı, gil, qum-çınqıl |
| Şuşa | Üzlük daşı, gil, tikinti daşı |
| Kəlbəcər | Qızıl, civə, perlit, obsidian, oniks, pefritoid, listvenit |
| Xocalı | Gil, üzlük daşı, qum-çınqıl |
| Laçın | Civə, pemza, vermukulit, vulkan külü, əqiq, jad |
| Qubadlı | Mişar daşı, gil, tikinti daşı, üzlük daşı, əlvan daşı |
| Cəbrayıl | sement, gəc, tikinti daşı, kips, ahhidrid, yəşəm, xalsədan |
| Zəngilan | Qızıl, gümüş, əhəng daşı, gil, qum-çınqıl |
| Xocavənd | Üzlük daşı, tikinti daşı |
| Ağdam | Mişar daşı, üzlük daşı, sement xammalı |

**Mənbə:** İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (http://www.iqtisadiislahat.org/)

Əgər nəzərə alsaq ki, sosial-iqtisadi və maddi-mənəvi sahələrdə erməni təcavüzkarlığının acı nəticələri ilə tarixə çevrilən 30 il ərzində ərazilərimiz işğal edilib, milli-mənəvi dəyərlərimiz dağıntıya, talançılığa məruz qalmışdır, o zaman deyə bilərik ki, artıq bu sahədə yeni yanaşma, "yeni qiymətləndirmə üsulları meydana gəlmişdir və regionun faydalı qazıntılarla bağlı yeni geoloji xəritəsi hazırlanmalıdır" (http://www.iqtisadiislahat.org/).

İşğaldan azad olunmuş rayonlar üzrə bu göstəricilər aşağıdakı cədvəldə verilmişdir:

**Cədvəl 6:** İşğaldan azad olunmuş rayonların 2021-ci il üzrə gəlirləri üzrə göstəricilər

(manatla)

| № | Rayonların adı | Gəlirlər: Cəm | Gəlirlər: o cümlədən Məqsədli büdcə fonduna məxsus məbləğ | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan hissəsinin aşağı həddi | Mərkəzləşdirilən xərcdən ayrılması planlaşdırılan məbləğin maksimum həddi |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | Rayonlar: | | | | | |
| 1 | Ağdam | 5 385 000 | 35 000 | 10 425 000 | 0 | 5 075 000 |
| 2 | Cəbrayıl | 998 000 | 16 000 | 3 669 000 | 0 | 2 687 000 |
| 3 | Füzuli | 7 966 000 | 17 000 | 10 351 000 | 0 | 2 402 000 |
| 4 | Xocavənd | 784 000 | 25 000 | 2 313 000 | 0 | 1 554 000 |
| 5 | Kəlbəcər | 1 300 000 | 4 000 | 4 989 000 | 0 | 3 693 000 |
| 6 | Qubadlı | 3 417 000 | 4 000 | 3 413 000 | 0 | 0 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 7 | Laçın | 2 420 000 | 75 000 | 5 459 000 | 0 | 3 114 000 |
| 8 | Şuşa | 1 382 000 | 2 000 | 2 176 000 | 0 | 796 000 |
| 9 | Zəngilan | 1 631 000 | 3 000 | 2 855 000 | 0 | 1 227 000 |

**Mənbə:** Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında ARQ (http://www.e-qanun.az)

"Dövlət büdcə mexanizmi vasitəsilə iqtisadi prosesləri stimullaşdırmaq imkanına malikdir. O, iqtisadiyyata birbaşa təsir edə bilər, lazım gəldikdə, iqtisadiyyatın mövcud proporsiyalarını dəyişə bilər" (Şəkərəliyev A.Ş., Şəkərəliyev Q.Ş. (2016), Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: "Turxan", 536 səh.).

Apardığımız empirik təhlil nəticəsində biz bəzi tədqiqatçıların qeyd etdikləri itirlmiş büdcə gəlirlərinin işğal olunmuş ərazilərdə işğal müddəti ərzində təqribən 100 milyard manatadək olan bir məbəğ təşkil etməsini qeyd edirik. Apardığımız empirik təhlil göstərdi ki, itirilmiş büdcənin aşkarlanması məqsədilə ölkə tapdaq altında olan torpaqlarda ən birinci görüləcək iş məhsuldar toplumların yerləşdirilməsi dərəcəsi, təsərrüfat korporasiyalarının artım tendensiyasını hesaba götürərək alınacaq ÜDM-nin miqdarının müəyyənləşdirilməsi olmalıdır.

ÜDM-nin təqribi miqdarı müəyyənləşdirildikdə növbəti addım o torpaqlar üçün işğal müddəti boyunca ortalama 12 aylıq vergi daxilolmalarının miqdarı müəyyən edilməli və korrelyasiyon metodla biz 30 il ərzində AR büdcəsinə daxil ola bilməyən vergilərin məbləğini təqribi olaraq hesablamağa müvəffəq olarıq.

Tədqiqatımızın növbəti addımında biz, büdcə gəlirlərinin analitik diferensial təhlilini davam etdirməyi, yəni o cümlədən, fiziki şəxslərin gəlir vergisi üzrə itkiləri, mənfəət vergisi üzrə itkiləri, torpaq vergisi üzrə itkiləri, əmlak vergisi üzrə itkiləri müəyyənləşdirə biləcəyik.

Biz eyni zamanda analoq üsulla Qarabağın iqtisadiyyatına yaxın ərazilər üzrə, məsələn Beyləqan, Tərtər, Zərdab və s. rayonların 90-cı ildən 2020-ci ilə qədərki dövr ərzindəki inkişaf tendensiyasını götürüb, həmin inkişaf tendensiyasına tətbiq etməklə Qarabağın iqtisadi artımını təmin edə bilərik. Qeyd edilən üsuldan istifadə etmək bizə işğal dövründə dövlət gəlirlərinin azalan daxilolmasının miqdarını digər nəticələrdən daha dəqiq nəticə ilə müəyyən edə biləcəyik.

# III FƏSİL. “AZƏRBAYCAN 2030: SOSİAL-İQTİSADİ İNKİŞAFA DAİR MİLLİ PRİORİTETLƏR” ÇƏRÇİVƏSİNDƏ İQTİSADİ ARTIM ƏSASINDA DÖVLƏT BÜDCƏSİNƏ DAXİLOLMALARIN (O CÜMLƏDƏN İŞĞALDAN AZAD OLUNAN ƏRAZİLƏRDƏN) MÜASİR PROBLEMLƏRİNİN HƏLLİ YOLLARI

## 3.1. Azərbaycan Respublikasında dövlət büdcə gəlirlərinin formalaşması və idarə olunmasının müasir problemlərinin həlli yolları

Müasir iqtisadi şəraitdə inkişaf edən bazar iqtisadiyyatı şəraitində xalq təsərrüfatının idarə olunması əsas məsələlərdən hesab olunur.

Azərbaycan Respublikasında müstəqillik qazandıqdan sonra yeni idarəetmə strukturlarının yaranması ilə bağlı olaraq ,nəzarətin bütünlüklə yenidən qurulması, o cümlədən daha da gücləndirilməsi üçün tədbirlərin işlənib hazırlanması mühüm məsələlərdən hesab olunur. Azərbaycan müstəqillik əldə etdikdən az sonra müstəqil büdcə formalaşdırmağa başlamışdır. Lakin həm Qarabağ müharibəsi, həmçinin iqtisadi strukturanın qurula bilməməsi artıq bu prosesi bir az ləngitmişdir. Bildiyimiz kimi, əsrin müqaviləsi imzalandıqdan sonra, habelə ölkədə münbit investisya şəraitinin yaranması ölkənin iqtisadi inkişafına kömək etmişdir. Lakin o dövrdə Azərbaycan Respublikasında büdcəni dünyadakı digər İEÖ vəya İEOÖ ilə qarşılaşdırmaq üçün erkən idi. Ölkəmizdə neft sektoru üçün nəzərdə tutulan layihələrin reallaşdırılması respublikamızın iqtisadi gücünü nəzərəçarpacaq dərəcədə artırmışdır.

Son illər Azərbaycanda aparılan uzunmüddətli uğurlu iqtisadi siyasət nəticəsində respublikamızda sürətli və dayanıqlı iqtisadi inkişafı təmin olunmuş, Azərbaycan iqtisadiyyatının dünya iqtisadi inteqrasiyasında böyük irəliləyişlər əldə edilmiş, ölkəmiz regiondakı beynəlxalq əhəmiyyətli layihələrin hazırlanması və həyata keçirilməsi aparıcı dövlətə çevrilmişdir.

Xalq son yüzillikdə ideoloji və diplomatik sektorda bütün dünyaya səs salan zəfərə nail olduTarixi qələbə nəticəsində başlanan Böyük Qayıdış erməni təcavüzkarlığı nəticəsində öz yurdundan, torpağından didərgin düşmüş məcburi

köçkünlərin düşməndən qurtulmuş torpaqlarda davamlı yaşamasını eyni zamanda həmin torpaqların iqtisadi fəallığın artmasını proqramına qoşulmasını təmin edəcəkdir.

Respublikamızın əzəli ərazi suverenliyinin bərpa edilməsi öz doğma yurdundan didərhin düşmüş insanların öz doğma torpaqlarına qayıdaraq istədikləri kimi rahat yaşamaları üçün yeni mərhələ yaratmışdır. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidentinin xüsusi sərəncamları və birbaşa göstərişləri ilə işğaldan azad olunan ərazilərimizdə təhlükəsiz və yaşayış üçün əlverişli həyat şəraiti yaradılması, əhalinin əbədi məskunlaşması üçün böyük vüsətlə tikinti və abadlıq işləri yerinə yetirilir. Həmin ərazilərdə layiqli səviyyədə yaşayışın təmin edilməsi üçün müasir tələblərə cavab verən infrastruktur qurulur, rahat həyat tərzinin və müasir xidmətlərə əlçatan olması təmin edilir. Bu baxımdan həmin regionların iqtisadi potensialından səmərəli istifadə edilməklə, insanların məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyədən üstün səviyyəyə çatdırılması istiqamətində müasir texnoloji tələblərə cavab verən çox böyük işlər davam etdirilir. Əlbəttə ki, bu işlərin görülməsində həmin regionların təbii resurs bolluğu bu ərazilərə daha böyük miqdarda əlavə sərmayə cəlbinə imkan verir. Xüsusilə bu zonada beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin açılması respublikamızın  dünya bazarlarına çıxış imkanlarını artırmaqla, həm də işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafı istiqamətində böyük miqyaslı işlərin yerinə yetirilməsinə  əhəmiyyətli təsir göstərir.

“Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli prioritetlər” çərçivəsində iqtisadi artim əsasinda   dövlət büdcəsinə daxilolmalarin (o cümlədən işğaldan azad olunan ərazilərdən) müasir problemlərinin həlli mütərəqqi dövlət büdcə gəlirlərinin formalaşması və idarə olunması səviyyəsindən asılıdır.

Azərbaycan Respublikasının daxilində qanunvericiliklə müəyyən olunmuş tədiyyələrə görə daxilolmaların dövlət büdcəsi, o cümlədən digər büdcələr arasında bölgüsü bütün regionların inkişaf proqramları öncədən nəzərə alınmaqla, hər ildə qəbul edilən dövlət büdcəsi haqqında qanuna uyğun tənzimlənir. Ümumiyyətlə,

dövlətin büdcə gəlirləri müəyyən prinsiplərə uyğun paylanır. İlk olaraq həlqələr arasında büdcə gəlirlərimizin hansı prinsiplərə uyğun paylandığına diqqət yetirək:

- istənilən büdcənin xərcləri səviyyəsində maliyyə gəlirləri ilə təmin edilməsi;
- büdcənin gəlirlər sisteminin uyğun ərazinin iqtisadi inkişafından asılı olaraq oranın gəlirləri hesabına formalaşması;
- büdcələrin düzgün balanslaşdırılmasına nail olunması;
- müvafiq ərazinin iqtisadi inkişafına müvafiq olaraq büdcənin təminatı.

Artıq bizə məlumdur ki, büdcə gəlirləri müxtəlif mənbələrdən formalaşır. Dövlət gəlirləri sisteminin mühüm tərkib hissəsi hesab edilən büdcə gəlirləri dövlətin əsas maliyyə ehtiyatlarını özündə cəmləşdirir. Demək olar ki, büdcə gəlirlərinin yaradılması vacib dövlət tədbirlərinin həyata keçirilməsinə görə ərazi, sahə, o cümlədən məqsədli təyinatı üzrə formalaşdırılır.

2019-cu ildə dövlət büdcəsinin gəlirlərinin tərkibində neft sektorundan daxilolmalar 13604581,6 min manat, qeyri-neft sektorundan daxilolmalar isə 10613480,1 min manat təşkil etmişdir. 2017-ci və 2018-ci illərə nisbətən nominal artımlar neft sektoru üzrə, müvafiq olaraq 5720561,9 min manat və ya 72,6% və 204112,2 min manat və ya 1,5%, qeyri-neft üzrə, müvafiq olaraq 1980815,8 min manat və ya 22,9% və 1505079,8 min manat və ya 16,5% səviyyəsində olmuşdur. Nəzərə alınmalıdır ki, bu artımlar 2017-ci və 2018-ci illərlə müqayisədə ÜDM-in, müvafiq olaraq 16,1%-lik və 2,0%-lik nominal artımları, o cümlədən neft sektoru üzrə ÜDM-in, müvafiq olaraq 20,2%-lik nominal artımı və 6,3%-lik nominal azalması, qeyri-neft sektoru üzrə ÜDM-in isə 13,7%-lik və 7,9%-lik nominal artımları şəraitində baş vermişdir. Dövlət büdcəsinin ümumi gəlirlərinin ümumdaxili məhsula həmçinin qeyri-neft gəlirlərinin ümumdaxili məhsula nisbəti hesabat dövründə artım dinamikası nümayiş etdirmiş, qeyri-neft sektorundan büdcə gəlirlərinin qeyri-neft ÜDM-ə nisbəti 21,1% təşkil etməklə son illər üzrə ən böyük göstərici olmuşdur. 43 Dövlət büdcəsinin qeyri-neft sektorundan gəlirləri inzibatçılığın gücləndirilməsi fonunda proqnozla müqayisədə artıqlaması ilə, neft sektoru üzrə isə kiçik kəsirlə icra edilmişdir.

2019-cu il üçün dövlət büdcəsinin qeyri-neft sektorundan gəlirləri üzrə müəyyən edilmiş 9467700,0 min manat məbləğində proqnoz 10613480,1 min manat və ya 112,1%, neft sektorundan gəlirləri üzrə müəyyən edilmiş 13700300,0 min manat məbləğində proqnoz isə 13604581,6 min manat və ya 99,3% səviyyəsində yerinə yetirilmişdir. Dövlət büdcəsinin qeyri-neft sektorundan gəlirləri üzrə müəyyən edilmiş proqnozun yüksək icra faizi əsasən vergi və gömrük orqanlarının inzibatçılığının təkmilləşdirilməsi sayəsində təmin olunmuşdur.

2018-ci ildə olduğu kimi 2019-cu ildə də Dövlət Neft Fondundan transfertin dövlət büdcəsi gəlirlərinin tərkibindəki payı yüksək olmuşdur. Belə ki, Dövlət Neft Fondundan daxilolmalar 2017-ci və 2018-ci illərə nisbətən, müvafiq olaraq 86,3% və 3,7% səviyyəsində artaraq 11364300,0 min manatadək yüksəlmiş və büdcə gəlirlərinin 46,9%- ni təşkil etmişdir (https://www.stat.gov.az).

"Tarixi faktlarla sübut edilmişdir ki, işğal olunduğu 30 il ərzində təcavüzkar ermənilər tərəfindən insanların yaşayış binaları, ictimai binalar, maddi və mədəni abidələr, məscidlər dağıdılmış, yeraltı və yerüstü sərvətlərimiz vəhşicəsinə talan edilmişdir. Bu baxımdan azad olunmuş ərazilərdə normal inkişafın bərpa olunması böyük maliyyə vəsaiti tələb edir" ("Qarabağ Dirçəliş Fondu"nun Nizamnaməsi təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2021-ci il tarixli Fərmanı).

Bu məqsədlə Respublika Prezidentinin xüsusi sərəncamı ilə işğaldan azad olunmuş ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyaları həyata keçirilir. Zəngilan rayonunun Üçüncü Ağalı kəndində reallaşdırılmaqdadır. İnkişaf etmiş ölkələrdə müddətdir istifadə edilir. Bu sahədə mütəxəssislər bu layihənin orada məskunlaşacaq əhali üçün böyük üstünlüklərə malik olduğunu vurğulayırlar. Bu layihənin həyata keçirilməsi iqtisadi tərəqqinin əsasını təşkil edən aqrar sektoru inkişaf etdirməklə, idarəetmə sistemində avtomatika və elektronlaşmanı, çevik qərarlar qəbul edilməsini və bu yolla şəffaflığın təmin edilməsini nəzərdə tutur.

Bu layihənin həyata keçirilməsi eyni zamanda əhalinin doğma torpalarında məskunlaşmasının sistemli şəkildə reallaşmasına və intesivləşdirilməsinə güclü təkan verir. Bu ərazilərdə insanların fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məqsədilə böyük miqyaslı əsaslı təmir-tikinti işləri görülür. Bu prosesdə istifadə

olunan Ağıllı Şəbəkə Konsepsiyası digər azad edilən ərazilərdə, o cümlədən Suqovuşan ərazisində də tətbiq edilir. Burada görülən işlər konsepsiyanın layihəsinə uyğun olaraq izolyasiyalı kabeldən istifadə edilməklə yerinə yetirilir. Bu sahə üzrə mütəxəssislərin fikrincə, həmin metodun tətbiqi ilə elektrik xətlərinin çəkilməsində itkilər minumum olur, çəkilən xətlər əlverişsiz hava şəraitinə daha dözümlü, buzlaşmaya qarşı daha dayanıqlı olur. Bundan əlavə, izolyasiyalı kabeldən istifadə edilməklə çəkilən xətlərin keçdiyi ərazilərdə texniki xidmət xərci də minumuma enir.

Bunu da bildirmək lazımdır ki, qayıdan torpaqların "Yaşıl enerji" ərazisinə dönüşdürülməsiylə əlaqədar olaraq nəzərdə tutulan prinsiplərə əsasən Suqovuşanda iki SES-in bərpası sonlandırılışdır.

Respublikamız bir çox sahələrdə olduğu kimi, elektrik əldə edilməsinin hidroenerji növündən tam yararlanmaq üçün geniş potensial imkanlara malikdir. Mütəxəssislərin hesablamalarına görə, respublikamızda su bazasının 4də 1i işğaldan azad olunan ərazilərdədir, yalnız Qarabağda yerləşən 25ən çox SES-i işğalçıların dağıtdığını qeyd etməliyik.

Bundan başqa, elektrik əldə edilməsinin hidroenerji növündən istifadə sahəsində Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşağı bəndlərinin və su elektrik ehtiyatlarından Azərbaycan Respublikası ilə yanaşı İran İslam Respublikasının da birgə istifadə etməsinə geniş imkan yaradır.

Yenidən formalaşdırılması mümkün olan enerji mənbələrindən istifadənin müasirlik, yenilik, ekoloji cəhətdən təmiz texnologiya olduğunu vurğulayan Respublika Prezidenti İlham Əliyevin fikrincə alternativ və bərpa olunan enerji mənbələrindən istifadə siyasəti belə düşünməyə əsas verir ki, "Yaşıl enerji" konsepsiyasına müsbət təsir göstərəcəkdir.

Bu minvalla Qarabağın inkişafı istiqamətində geniş miqyaslı layihələrin, bərpa-quruculuq və yenidənqurma işlərinin həyata keçirilməsinə tərəfdaş və marağı olan ölkələrin cəlb edilməsinə hərtərəfli imkanlar yaradılır. Artıq qardaş və dost ölkələr, digər xarici dövlətlər erməni vəhşiliklərinin dağıdıcı izlərini aradan

qaldırmaq üçün bu layihələrin həyata keçirilməsinə qoşulmuş və bir çox xarici şirkətlər bu layihədə iştirak etməyə hazır olduqlarını bildirirlər.

Bu ərazilərdə tətbiq edilən “Ağıllı kənd” və “Ağıllı şəhər” layihələri müasir tipli yeni texnologiyalara əsaslandığı üçün bu bölgəyə texnoloji istiqamətdə investorların cəlb edilməsinə, burada irimiqyaslı aqroparkların və texnoparkların yaradılmasına geniş imkanlar yaradır. Bu imkanların reallaşması isə Qarabağ iqtisadiyyatının ümumilikdə ölkə iqtisadiyyatına inteqrasiya edilməsini və bununla ölkə iqtisadiyyatının sürətli inkişafını təmin edəcək.

Məlumdur ki, Qarabağda bir neçə ağırlıq mərkəzləri var və bu mərkəzlərin sırasında Füzuli və Zəngilan hava limanlarının özünəməxsus əhəmiyyəti vardır. Bu zonalarda aeroportların istifadəyə verilməsi Zəngəzur dəhlizinin də əhəmiyyətini artırır. Bu dəhlizin bərpa edilməsi təkcə Azərbaycanın deyil, ümumilikdə həmin regionun, bununla y anaşı Avrasiyanın bir sıra ölkəsinin geniş maraq dairəsindədir.

Həyata keçirilən layihələr əsasında Naxçıvanın quru yolla Azərbaycana birləşdirilməsinin reallaşdırılması da həmin bölgənin Azərbaycan iqtisadiyyatına daha sıx reinteqrasiyasına imkan verəcəkdir.

Zəngəzur dəhlizinin açılması Azərbaycan ilə Naxçıvan arasında nəqliyyat əlaqələrinin, deməli, Xəzər dənizi və Aralıq dənizindən başlayaraq Cənub-Şərqi Asiya və Mərkəzi Asiyaya qədər Avropa arasında nəqliyyat və logistika xəttinin genişlənməsini təmin edəcək. Zəngəzur dəhlizi təkcə Azərbaycan, Türkiyə və İran üçün deyil, həm də iqtisadi cəhətdən məhdud Ermənistan üçün vacibdir.

Artıq tarixə çevrilmiş 30 il ərzində işğal altında torpaqlarımızdada faydalı qazıntı yataqlarının vəziyyəti haqqında hələ ki, dəqiq məlumatlara malik olmasaq da, “Azərkosmos”un təqdim etdiyi aerofotoşəkillərə əsasən erməni işğalçıları tərəfindən bu yataqların bir hissəsinin amansızcasına istismar edildiyi müşahidə olunub. Bu gün işğaldan azad olunmuş ərazilərdəki mövcud yataqların istismar vəziyyətinin araşdırılması, qalıq ehtiyatlarının hesablanması, qiymətləndirilməsi, müasir üsullarla vurulmuş zərərin miqyasının müəyyənləşdirilməsi iqtisadçı-alimlərin qarşısında duran əsas vəzifələrdəndir.

Bu sahədə diqqət yetirilməli olan sahələrdən biri kimi Qarabağ ərazisində yerləşən Kiçik Qafqaz dağlarının təkcə qızıl yataqları ilə deyil, həm də bir çox faydalı qazıntılarla, təbii ehtiyatlarla zəngin olmasının Azərbaycan iqtisadiyyatında xüsusi rolu olması reallığı mühüm əhəmiyyət kəsb edir.

Bundan əlavə, Zəngilan rayonundakı Vejnəli, Kəlbəcərdəki Zod, Ağdərədəki Qızılbulaq qızıl yataqlarının gələcəkdə səmərəli istismarı nəticəsində Azərbaycan iqtisadiyyatına daha böyük miqdarda xeyir gətirəcəyi mühüm iqtisadi faktlar kimi diqqət mərkəzində dayanır. Qeyd edək ki, sənaye ehtiyatları təsdiq olunan qızıl ehtiyatlarının həcmi 132,6 tondur. Dünya bazarlarında bunun dəyəri 8 mlrd. ABŞ dolları dairəsindədir. Elə bu səbəbdən öz iqtisadi mənfəətinin artırılmasını düşünən bir çox dövlətlər Qarabağ regionuna investisiyalar qoymaqda maraqlıdırlar. Hazırda bir çox xarici şirkətlər metallurgiya, dağ-mədən, emal sənayesinə əsaslı investisiya qoyaraq, həm Azərbaycanın, həm də öz iqtisadiyyatına mənfəət gətirə biləcək təkliflər irəli sürürlər. Bu sahədə Zəngilan rayonunda yerləşən Vejnəli qızıl yatağı daha çox diqqət mərkəzindədir.

Respublika Prezidentinin sərəncamı və xüsusi tapşırığı ilə erməni işğalından azad olunan rayonlarda humanizm və ədalət prinsiplərinə əsaslanan bərpa işləri planlı, elmi əsaslarla, sistemli şəkildə və mərhələlərlə həyata keçirilir.

Belə ki, birinci mərhələdə dəymiş ziyanın qiymətləndirilməsi, ikinci mərhələdə infrastruktur layihələrinin icrası, üçüncü mərhələdə isə sosial obyektlərin inşası, yaşayış üçün şəraitin yaradılması və yaşayış evlərinin tikilməsinin reallaşdırılması bu işlərin həmin prinsiplərə uyğun yerinə yetirildiyini göstərir.

İşğaldan azad edilmiş ərazilərin (Kəlbəcər və Laçın rayonları) əsas tələbatını ödəmək üçün humanizm prinsipinə uyğun olaraq, zəruri mallar mağazaları, apteklər, bankomatlar, yanacaqdoldurma məntəqələri və s. Layihənin açılışı üçün müvafiq şirkətlərlə görüşlər keçirilib. Bu aylar ərzində sahibkarların razılaşdırılmış qrafik və marşrut üzrə rayonlara yola düşməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının sərhədlərinin və ərazi bütövlüyünün toxunulmazlığına, habelə onun mülki əhalisinə dəymiş maddi ziyanla bağlı

Ermənistanın təcavüz və işğalçılıq siyasətinin əsas mahiyyəti, fəlsəfəsi və real nəticələri barədə obyektiv məlumatların təhlili, sistemləşdirilməsi və yayılması. bölgə. və mənəvi irs, təbii sərvətlər və biomüxtəliflik Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağın Dirçəliş Fondu tərəfindən “Karabakh.Center” layihəsi həyata keçirilib və müvafiq informasiya internet portalı yaradılıb (“Qarabağ Dirçəliş Fondu”nun Nizamnaməsi təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2021-ci il tarixli Fərmanı). Burada da erməni təcavüzkarlığı təkcə milli zəmində deyil, həm də bəşəriyyətə qarşı yönəldilmiş terror aktı kimi dəyərləndirilərək belə bir həqiqət vurğulanır ki, əgər genosid bütöv bir xalqın, bir tayfanın məhv edilməsidirsə, ekosid bütövlükdə bəşəriyyətin məhv edilməsinin hədəfə alınmasıdır. Ona görə də müxtəlif yollardan, bütün mümkün variantlardan istifadə etməklə erməni vandalizmin acı nəticələri bütün dünya ictimaiyyətinə çatdırılmalıdır.

## 3.2. Azərbaycanın büdcə gəlirlərinin formalaşmasında səmərəli vergi siyasətinin rolu və onun təkmilləşdirilməsi istiqamətləri

Dövlət tərəfindən qəbul edimiş, büdcə daxilolmaları mövzusunda cəmiyyətin qarşısında duran konseptual əhəmiyyətli taşırıqları reallaşdırmağa hədəflənmiş tədbirlər planı dövlətin vergi siyasətinin əsas mahiyyətini təşkil edir. Dövlət vergi siyasətinin məqsədi və bu məqsədin həyata keçirilməsindən irəli gələn vəzifələr, təbiidir ki, bu siyasətin həyata keçirildiyi konkret iqtisadi və tarixi şəraitdən asılıdır. Deməli, vergi daxilolmaları büdcə gəlirlərinin tərkib elementi olub, daha çox büdcə gəlirləri deməkdir. Amma onu da nəzərə almaq lazımdır ki, vergilərin müəyyən həddən sonra yüksəlməsi lazımi səmərənin əldə olunmasına imkan verməyəcək. Bu, ilk növbədə sahibkarlıq və biznes mühitinə, ümumilikdə isə iqtisadi artıma mənfi təsir göstərəcək. Bu baxımdan səmərəli vergi siyasətinin tətbiq edilməsi dövlətin büdcə gəlirlərini formalaşdırmaqla yanaşı, ümumi iqtisadi inkişafa müsbət təsir göstərir. İndiki bazar iqtisadiyyatı şəraitində səmərəli vergi siyasəti Dövlət Büdcəsi gəlirləri sistemində mühüm yer tutur.

Vergi siyasətinin məqsədi ayrı-ayrı sahələr üzrə vergilərin mahiyyətinə uyğun olaraq onların həyata keçirməli olduğu funksiyalarından irəli gəlir. Qarşıya qoyulan bu məqsədlər ictimai məhsulun bir hissəsinin dövlət tərəfindən alınmasından və bu vəsaitlərin büdcə vasitəsi ilə yenidən bölüşdürülməsindən ibarət olur.

Vergi planının təməli maliyyə ilinin büdcəsi təstiqlənərkən qoyulur. Bu planın reallaşdırılması da müəyyən normativ aktların həyata keçirilməsi vasitəsiylə aparılır. Bu zaman dövlət tərəfindən məqsədə uyğun vəzifələrin həyata keçirilməsi üsulları da işlənib hazırlanır.

Vergi siyasətinin məzmunu çoxşaxəli olub, geniş əhatə sahəsinə malikdir:

- vergi sisteminin inkişafı ilə əlaqədar elmi-nəzəri konsepsiyasının hazırlanması;
- vergitutmanın əsas qanunauyğunluqlarını və prinsiplərinin müəyyən edilməsi;
- cəmiyyətin sosial-iqtisadi inkişafı, büdcə gəlirlərinin gücləndirilməsi mexanizminin işlənib hazırlanması;
- ekologiyanın, sahələr üzrə vəzifələrin həyata keçirilməsi kriteriyalarının müəyyən edilməsi.

Nəzərə almaq lazımdır ki, vergi münasibətləri vergi siyasətinin mahiyyətinin aşkar edilməsinin ilkin şərti hesab olunur (Kəlbiyev Y.A. (2012), "Vergi siyasətinin konseptual əsasları və praktiki aspektləri", Bakı, "Elm", 488 səh.).

Fiskal siyasət ölkənin çıxarları və daxilolmalarıyla əlaqədar bir tənzimləmə sistemidir. Fiskal siyasət idarəedici və qanunverici aparatların dinamikası ilə əsaslı şəkildə əlaqədardır. Yəni bu siyasət makroiqtisadi tənzimləmənin əsas vasitələrindən biri olub, dövlət xərclərinin və büdcə gəlirlərinin formalaşmasında səmərəli vergi siyasətinin təkmilləşdirilməsi istiqaməti kimi mühüm əhəmiyyətə malikdir.

Həyata keçirilən vergi siyasətinin üstünlüyü dövlətin ümumi kapital yığımının formalaşmasına və əhalinin alıcılıq qabiliyyətinin artımına tədir etməsi ilə ölçülür. hansı ki, tənzimləmə funksiyasının mahiyyəti onların köməyiylə dövlətin yeindən istehsal prosesilə əlaqədar olmasından ibarətdir. Bu baxımdan ölkədə istifadı

olunan bütün vergi növlərinin, vergi üsul və prinsiplərinin cəmi həmin ölkənin vergi sistemini təşkil edir. Birbaşa və dolayı vergilər vardır.

Vergiyə aid olmayan gəlirlər dedikdə bura aksizlər, inhisardan daxilolmalar, sərhədd məntəqələrindən gəlirlər aiddir. Əlavə dəyər vergisi isə dolayı vergi sayılır.

İqtisadiyyatın mövcud vəziyyətində dövlət üçün üstün hesab edilən məqsədlərdən asılı olaraq iqtisadi inkişafın cari mərhələsində vergi siyasətinin özünəməxsus tiplərindən istifadə olunur:

Maksimal vergi siyasətinin həyata keçirilməsi zamanı dövlət tərəfindən yüksək vergi dərəcələri tətbiq edilməklə, həmçinin vergilərin sayı artırılmaqla, vergi güzəştləri ixtisar edilməklə vətəndaşlardan daha çox maliyyə vəsaiti toplanılır. Belə vergi siyasətinin tətbiq edilməsi ilə ayrıca götürülmüş konkret vergi ödəyicisi və ümumilikdə cəmiyyət üçün iqtisadiyyatın inkişaf etdirilməsi sahəsinə ümid yeri qoyulmur.

Belə vergi siyasətinin uzun zaman ərzində tətbiq edilməsi mənfi nəticələrin əldə edilməsinə səbəb olar. Laffer əyrisi bu mənfi nəticəyə misal ola bilər: belə ki, "normal zona" hesab olunan böhran nöqtəsindən aşağıda vergi daxilolmaları artır, "qadağan olunmuş zona" hesab olunan böhran nöqtəsindən yuxarıda daxilolmalar azalır.




Laffer əyrisi

x - vergi dərəcəsi;

y1 - büdcə gəlirlərinin maksimum mümkün həddi;

x1 – büdcə gəlirlərinin maksimum qiymət aldığı vergi dərəcəsi.

X oxu boyunca vergi dərəcələri, Y oxu boyunca isə vergi daxilolmalarının həcmi göstərilir.

Optimal vergi siyasəti zamanı sahibkarlıq fəaliyyətinin subyektlərinin inkişafına təkan verən əlverişli vergi mühiti yaradılır ki, bu siyasətin tətbiq edilməsi büdcə xaricolmalarının azalmasını edir.

Hansı daxilolma planının tətbiq edilməsi yolları dövlətin həmin planı həyata keçirməklə əldə etmək istədiyi məqsədlə tənzim olunur. Adətən inkişaf etmiş bazar iqtisadiyyatı zəminində dövlət tərəfindən tətbiq edilən vergi siyasəti istehsalın, iqtisadi inkişafın, əhalinin gəlir səviyyəsinin quruluşunun dəyişdirilməsi, eləcə də Ümumi Daxili Məhsulun bölüşdürülmüsi məqsədini qarşıya qoyur.

Tətbiq edilən vergi siyasətinin rolu onun proporsional, inkişafetdirici vergi faizlərindən istifadəyə böyük fürsət yaratmasından ibarətdir. Burada proqressiv və reqressiv vergi dərəcələrinin xüsusi əhəmiyyətə malikdir. Qeyd olunan vergi dərəcələrinin köməyi ilə vergi ödəyicilərinin gəlirlərinin səviyyəsinin tənzimlənməsi həyata keçirilir.

Vergi güzəştlərinin mahiyyəti fiziki və hüquqi şəxslərə vergidən tam və ya qismən azad olma hüququ verə bilməsi ilə xarakterizə olunur. Güzəştlərin verilməsinin həm forma, həm də metodları daim dəyişir və inkişaf edir.

Baş vermiş iqtisadi və maliyyə böhranlarının nəticələrinin yumşaldılması məqsədi ilə müəyyən vergi güzəştləri həyata keçirilir. Qeyd edə bilərik ki, işğaldan azad edilən ərazilərdə istifadəyə verilən obyektlər, müəssisə və təşkilatlar, o cümlədən həmin ərazilərdə – öz doğma torpaqlarında daimi məskunlaşan fiziki və hüquqi şəxslər vergidən azad edilməlidirlər.

Diqqət yetirdikdə respublikada həyata keçirilən vergi siyasətinin müxtəlif istiqamətlərə yönəldilmiş olduğunu görərik:

- tətbiq edilən vergi dərəcələrinin aşağı salınması hesabına vergitutma bazasının möhkəmləndirilməsi;
- vergitutma bazasının vergi güzəştlərinin azaldılması hesabına genişləndirilməsi;
- iqtisadiyyatın inkişafına investisiya qoyuluşunun stimullaşdırılması;
- biznes fəaliyyəti, KOS-a əlverişli şəraitin yaradılması;

- mövcud iqtisadi potensialın artırılması;
- əhalinin maddi rifahının yüksəldilməsi.

Əhaliyə düşən vergi yükünün səviyyəsinin ÜDM-də xüsusi çəkisi ümumi şəkildə vergi yükü vergi daxilolmalarının cəminin ÜDM həcminə nisbətinin faizlə ifadəsi kimi verilir.

$$K = V/ÜDM$$

Burada: K- vergi yükünün; ÜDM- ümumi daxili məhsulun; V- vergi daxilolmalarının həcminin ifadə formasıdır.

Ancaq mikrosəviyyədə qəbul edilən vergi kütləsi əhali tərəfindən daxil edilən miqdarın onun bütün daxilolmaların cəmində miqdarıyla müəyyənləşdirilir:

$$K=(v/m)*100\%,$$

Qeyd olunan k - vergi yükü, v - il ərzində ödənən verginin həcmi; m - illik məcmu gəlirdir.

Ümumi daxili məhsul bütün mal və xidmətlərin məcmu bazar qiymətidir. Son beş ildə rüspublikamızın ümumi daxili məhsul üzrə hesabata nəzər saldıqda bu inkişafım dinamikasını izləmiş olarıq.

2018-ci ildə ölkənin ÜDM həcmi 2017-ci il ilə nisbətdə 0.014 dəfə artaraq 79786,3 milyon manat olmuşdur.

Adam başına düşən ümumi daxili məhsul miqdarı 8136 manat təşkil etmişdir.

2019-cu ildə ölkənin ÜDM həcmi 2018-ci il ilə nisbətdə 0.022 artaraq 81680,0 milyon manata çatmışdır.

Adam başına düşən ümumi daxili məhsul miqdarı 8248,0 manat təşkil etmişdir.

2020-ci ildə ölkədə 2019-cu illə nisbətdə 4.3 faiz azalan ümumi daxili məhsul həcmi 72432,2 milyon manatlıq 4,3 olmuşdur.

2021-ci ildə ölkədə istehsal olunmuş ümumi daxili məhsulun həcmi ötən ildən 6 faiz artıq olmaqla 92860,0 milyon manat olmuşdur.

Adambaşına düşən ÜDM 9269,3 manat təşkil edib.

2022-ci ilin yanvar ayında ölkədə 9257,6 milyon manatlıq məhsul istehsal edilib ki, bu da keçən ilin eyni dövrü ilə nisbətdə 5,8 faiz artıqdır. (https://www.stat.gov.az).

Göründüyü kimi, ümumi daxili məhsul ölkənin iqtisadi inkişafının əsas göstəricisidir. ÜDM artırsa, deməli, ölkə iqtisadiyyatı inkişaf edir. İqtisadiyyatın müxtəlif sahələri üzrə ÜDM-i hesablayarkən onlardan hansının artdığını, hansının azaldığını öyrənə bilərik.

"İqtisadi artım tempi tənzimlənmiş və bu güclü təməl sayəsində respublikamız regionun ən inkişaf etmiş ölkələri sırasında özünə layiqli mövqe qazanmışdır. "Həyata keçirilən uğurlu siyasət nəticəsində iqtisadiyyatın əhatə dairəsi genişlənmiş, iri miqyaslı beynəlxalq iqtisadi layihələr həyata keçirilmiş, xalqın sosial inkişafının artırılması yolunda böyük uğur qazanılmışdır" (Əyyubov V.S., Tağıyev A.M. (2014) "Milli iqtisadiyyatın tənzimlənməsi", Bakı:"Avropa", 350 səh.).

Dövlət Statistika Komitəsinin bazasına əsasən aparılan araşdırmalardan görünür ki, bu onillikdə iqtisadi artımın və səmərəliliyin nümunəsi sayılan ÜDM-nin artım tempi yüksələn xətlə getmiş, iqtisadi inkişafda kəmiyyətdən yox, əsasən keyfiyyət və iqtisadi artım göstəricisi kimi qəbul edilən ümumdaxili məhsulun hər bir adama bölünən miqdarının da çoxalması təmin olunmuşdur.

İkinci Qarabağ müharibəsində tarixi qələbə qazanan Azərbaycanın regionda yaratdığı yeni reallıqlar bölgədə sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin edilməsini nəzərdə tutur. Əlbəttə ki, bölgədə iri miqyaslı kommunikasiyaların açılması, "Araz Vadisi İqtisadi Zonası"nın yaradılması, Zəngəzur dəhlizinin istifadəyə verilməsi çoxşaxəli işlərin həyata keçirilməsi üçün böyük əhəmiyyət kəsb edir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

2020-ci il Azərbaycan Respublikasının dövlətçilik və müstəqillik tarixinə Prezident İlham Əliyevin rəhbərliyi ilə düşmən torpaqlarımızın azad edilməsi, işğalçı ölkə üzərində parlaq hərbi-siyasi qələbə ili kimi yazılıb. Ötən bu 30 il ərzində işğal altında olan rayonlar üzrə dövlət büdcəsinə hüquqi cəhətdən daxil olmalı olan daxilolmalar öz əksini tapa bilməmişdir. Bu da Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmalar kimi bir münasibəti yaratmışdır.

30 il ərzində ölkə əraziləri ermənilər tərəfindən işğal zonasında qalmış Qızılbulaq, Vecnəli və Söyüdlü (Zod) məxsusi qızıl filizi yataqlarının istismara cəlb olunması, respublikada qızılçıxarma sənayesinin hasilatın aparılması işi pozulmuş və respublikanın etibarlı qızıl fondu yaradılması baş verə bilməmişdir. İşğal nəticəsində bu qızıl yataqlarının ehtiyatları ermənilər tərəfindən talan olunmuşdur.

İlkin hesablamalara görə, işğal nəticəsində Azərbaycan iqtisadi potensialının 16 faizini itirib və ölkəyə 60 milyard dollardan çox ziyan dəyib. İşğal kənd təsərrüfatına 20 milyard manata yaxın ziyan vurmuş, aqrar sahənin inkişafını xeyli dərəcədə ləngitmişdir.

44 günlük Vətən Müharibəsindəki şərəfli qələbə nəticəsində işğaldan qurtulan torpaqların iqtisadiyyatının ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regionda nəqliyyat-logistik koridorların yaratdıqları imkandan yararlanmaq Azərbaycanın iqtisadi inkişafına böyük təkan verəcəkdir.

Azərbaycanın iqtisadi rayonlarının yeni bölgüsünə əsasən iqtisadi rayonların sayı 10-dan 14-ə çatdırılıb ki, bunlardan biri də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarıdır. Bu bölgü Qarabağ bölgəsinin sürətli inkişafına xidmət edir.

İşğaldan azad edilmiş rayonların davamlı inkişafı iqtisadiyyatın zəruri resurslara olan tələbatının ödənilməsindən asılı olacaq və təbii sərvətlərin bolluğu bu sahələrə əlavə investisiyalar cəlb edəcəkdir.

Azad edilmiş torpaqlarımızda reallaşacaq qlobal layihələr onu deməyə əsas verir ki, artıq Azərbaycanın və regionun inkişafında yeni dövr başlayır. Bu

layihələrin gerçəkləşməsi isə regional inkişaf, əməkdaşlıq üçün daha əlverişli imkanlar yaradacaq.

Rabitə sisteminin bərpası ölkənin regional iqtisadiyyatına inteqrasiyasını sürətləndirəcəkdir.

Ölkə ərazilərinin işğaldan azad edilən ərazilərdə klasterlərin fəaliyyət sahələrinin yaradılması zəruri məsələlərdən hesab edilə bilər.

Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi başlıca istiqamətlərdən biridir.

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ə əsaslanaraq qeyd edə bilərik ki, işğaldan azad edilmiş ərazilərdə də iqtisadi münasibətlərdə iştirak edən bütün subyektlərin fəaliyyətində müsbət irəliləyiş olacaqdır.

İşğaldan azad edilən ərazilərdə, hazırda, təxminən 1,5 milyon hektar ərazi, kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün yararlıdır. Orta müddətli perspektivdə Qarabağ regionu ölkənin kənd təsərrüfatına 10 faizdən çox töhfə verə bilər.

İşğaldan azad edilmiş ərazilərdə təxminən 160 faydalı qazıntı ehtiyatı hesabına dağ-mədən sənayesinin inkişafı planlaşdırılır. Xüsusən “Söyüdlü” yatağının hesabına Kəlbəcərin bölgədə dağ-mədən sənayesinin mərkəzinə çevrilməsi imkanları genişdir. İşğaldan azad edilmiş əraziləriin mədənçıxarma sənayesinə təsiri 5-6 faiz, emal sənayesinə isə təsiri 4-5 faiz ola bilər.

İşğaldan azad olunan torpaqlarımızda yaradılacaq inkişaf modeli həm beynəlxalq standartlar çərçivəsində infrastrukturun formalaşmasını, həm də iqtisadi menecmentin müasir çağırışlara uyğun qurulmasını ehtiva etməlidir.

Təbii sərvətlərdən əlavə işğaldan azad edilmiş ərazilərdə turizmin inkişaf etdirilməsi prioritet hesab edilməlidir.

Ölkəmizdə Azərbaycanın postmüharibə dövründəki yeni hədəfləri ilə bağlı strateji proqram həyata keçirlir. Müharibədən sonrakı dövrdə yeni təyinatına görə azad edilmiş torpaqlar bərpa olunan enerji, qiymətli təbii sərvətlər, qızıl yataqları, mis yataqları, çaylar, su anbarları, kənd təsərrüfatı üçün münbit torpaqlar və turizm

imkanları baxımından əhəmiyyətli potensiala malikdir. Bu baxımdan azad olunmuş torpaqlar Azərbaycanın gələcək inkişafını təmin etmək üçün xüsusi rol oynaya bilər. Göstərilən istiqamət üzrə fəaliyyət isə nəzəri cəhətdən əsaslandırılmış iqtisadi qaydalara uyğun həyata keçirilə bilər.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli Sərəncamı
2. "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il, 29 oktyabr tarixli Fərmanı
3. "Qarabağ Dirçəliş Fondu"nun Nizamnaməsi təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2021-ci il tarixli Fərmanı
4. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasinin Qanunu. Bakı şəhəri, 2 iyul 2002-ci il № 358-IIQ
5. "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 18 may 1999-cu il № 667-IQ
6. 13 may 2003-cü il tarixli 452-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2003-cü il, № 06, maddə 267
7. 3 dekabr 2004-cü il tarixli 791-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 12, maddə 979) ilə 9.1.1-9.1.3-cü maddələr
8. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi (neft-qaz və kimya məhsulları daxil olmaqla) Bakı, 2016. 88səh.
9. Abbasov İ. (2013) "Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı", Bakı, 712 səh.
10. Aslanlı K. (2017) "Azərbaycanda innovasiya siyasətinin effektivliyinin artırılması yolları", Bakı, 250 səh.
11. Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qanunsuz fəaliyyəti. http://azerbaijan.az/portal/Karabakh/ArmenianAgression/armenianAgression_a.html?armenianAgression_04.

12. Bayramov V.A. (2019) "Milli iqtisadiyyat konsepsiyası: dayanıqlılıq problemi" (monoqrafiya), Bakı, "AVROPA", 304 səh.
13. Bədəlov Ş. (2008) "Büdcə sistemi" (dərs vəsaiti), Bakı, 156 səh.
14. Əhmədov İ., Aslanlı K., Əhmədov Ş. (2008) "Dövlət Maliyyəsi terminləri lüğəti", Bakı, 186 səh.
15. Əliyev A., Şəkərəliyev A. (2002) "Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti", Bakı, "İqtisad Universiteti", 440 səh.
16. Əliyev T.N. (2019) "Klasterlər: beynəlxalq təcrübə və innovativ inkişaf" (monoqrafiya), Bakı, "Elm və Bilik", 536 səh.
17. Əyyubov V.S., Tağıyev A.M. (2014) "Milli iqtisadiyyatın tənzimlənməsi", Bakı: "Avropa", 350 səh.
18. Əzizova G.A. (2012) "Dövlətin investisiya-innovasiya siyasəti" (dərs vəsaiti), Bakı, "İqtisad Universiteti", 212 səh.
19. İmanov K. (2016) "Kreativ iqtisadiyyat və Azərbaycan iqtisadiyyatının inkişafı", Bakı 396 səh.
20. Kempbell R., Makonnell, Stenli L.Brö. (1992) "Ekonomiks", Bakı, 321 səh.
21. Kəlbiyev Y.A. (2012), "Vergi siyasətinin konseptual əsasları və praktiki aspektləri", Bakı, "Elm", 488 səh.
22. Qradov A.P. (2008) "Milli iqtisadiyyat" 2-ci nəşri, (Rus dilindən tərcümə), Bakı: "İqtisad Universiteti"
23. Məmmədov F.Ə. (2010) "Vergilər və vergitutma" Bakı, "Çaşıoğlu", 512 səh.
24. Məmmədov Q., Xəlilov M. (2017) "Bioloji çirklənmə", səh. 22-25.
25. Məmmədov R.F., Məmmədov X.R. (2017) "Müasir beynəlxalq hüquq nöqteyi-nəzərindən Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qanunsuz və hüquqa zidd fəaliyyəti", Bakı, "MM-S", 260 səh.
26. Musayev A.F. "İnnovasiya siyasəti: Avropa birliyi təcrübəsi və Azərbaycan şəraitinə adaptasiya imkanları". Vergi jurnalı, 2010, № 5.
27. Musayeva C.Q., Tağıyev A.M. (2018) "Azərbaycan iqtisadiyyatı", Bakı, "Avropa", 420 s.

28. Süleymanov E.B. (1998) “Azərbaycan iqtisadiyyatı” (dərslik). Bakı, səh. 51-52.
29. Şəkərəliyev A.Ş., Şəkərəliyev Q.Ş. (2016) Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: “Turxan” , 536 səh.
30. Tağıyev A.H., Aslaınzadə İ.A. (2017) İnnovasiya menecmenti II hisə (dərs vəsaiti). Bakı, 352 səh.
31. Vəliyeva T.S. (1994) “İqtisad elmləri: nəzəriyyə və praktika”, № 2.

## İngilis dilində

1. Mekson M. (2008) “Government Budget Forecasting: Theory and Practice”, AUERBACH Press.
2. Süleymanov E., Yusifov S. (2014) “Problems Encountered during the Transition to Market Economy in Azerbaijan and Solution Attempts”, Expert Journal of Economics , Vol. 2, No. 2, p. 45-54.

## Rus dilində

1. Бабич А.Д. “Проблемы и перспективы внутреннего рынка государственных долговых обязательств” стр. 65.
2. Качуровский Е.П. (2012) “Современная мировая экономика”, Минск, Белпринт, стр.43.
3. Киндлбергер Ч., Алибер Р. (2010) “Мировые финансовые кризисы. Банкротство, тревога и мания”, Санкт-Петербург стр. 76.
4. Ойкен, В. (1995) “Основные принсипи экономической политики”, Прогресс. стр.98.
5. Поляк Г.Б. (1998) “Региональная политика в странах рыночной экономики”, Москва, стр. 356.
6. Рустамов Э. (2009) “Принципы эволюционной модернизации переходных экономик”, Вопросы экономики, № 6, стр.85.

7. Самуэльсон П., Нордхаус У. (1992) “Роль правительства в рыночной экономике”, Америка, стр.19.

## İnternet resursları

1. http://sfdi.gov.az/az/qarabagi-unutma
2. http://www.e-qanun.az
3. http://www.iqtisadiislahat.org/
4. https://www.stat.gov.az

## CƏDVƏLLƏRİN SİYAHISI


**Cədvəl 1 :** Dövlət büdcəsinin strukturu 11

**Cədvəl 2:** 1991-2019-cu illər ərzində büdcə daxilolmalarının miqdarı milyon manatla 29

**Cədvəl 3:** 1991-2019-cu illər ərzində büdcə daxilolmalarının miqdarına əsasən Qarabağ iqtisadi regionunun büdcəyə verə bilmədiyi mənfəət vergisinin miqdarı milyon manatla 30

**Cədvəl 4:** Erməni işğalçıları tərəfindən dağıdılmış, yandırılmış və talan olunmuş bəzi obyektləri və işğal olunan ərazi və əhalinin göstəriciləri 45

**Cədvəl 5:** İşğaldan azad olunmuş rayonlar üzrə faydalı qazıntlarən növləri 49

**Cədvəl 6:** İşğaldan azad olunmuş rayonların 2021-ci il üzrə gəlirləri üzrə göstəricilər 49